GÜLÜSTAN
Qadın-Ailə jurnalı
№10-Aprel-May-İyun 2026

Təsisçi:
Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı

Redaktor:
Lamiyə HACIYEVA

Redaktor müavini:
Mirvari NAĞIYEVA

Redaksiya heyəti:
Mirvari Nağıyeva
Nabat Eminova
Nərgiz Bağırova
Nərgiz Tanrıverdiyeva

Dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: GÜRCÜSTAN,
Rustavi şəhəri,
Şartava 12 b.
Tel: (+995) 577 15 73 81

e-mail:
gulustanjurnali@hotmail.com

Hörmətli oxucular!

Jurnalımızın bu sayında sizi insan həyatının iki ən böyük sütunu ətrafında düşünməyə dəvət edirik: Mənəvi təmizlik və örnək nəsil.

İnsanlıq tarixi boyunca dəyişməyən bir həqiqət var ki, gələcəyi inşa etməyin yolu bu günü doğru yaşamaqdan və doğru nümunə olmaqdan keçir. Elə bu səbəbdən, sayımızın ana xəttini təşkil edən “Örnək nəsil yetişdirməyin yolu örnək şəxsiyyət olmaqdan keçir” başlığı altında tərbiyənin nəsihətlə deyil, yaşantı ilə mümkün olduğunu diqqətinizə çatdırırıq. Uşaq tərbiyəsində əsrlərin süzgəcindən keçmiş hikmətli tövsiyələri, müasir ailə modelində valideynlərin və dayələrin üzərinə düşən məsuliyyətləri oxuduqca, övladlarımızın əslində bizim bugünkü halımızın bir güzgüsü olduğunu bir daha dərk edəcəyik.

Lakin insanın təkcə ətrafını deyil, öz daxilini də tərbiyə etməyə ehtiyacı var. Məhz buna görə jurnalımızın səhifələrində sizi mənəvi bir səyahət gözləyir. “Hikmətlərlə dolu Həcc” mövzusunda bəşəriyyətin böyük birliyini və ruhun arınma məqamlarını, “Haqqı qəlbində axtar!” çağırışı ilə insanın öz daxili aləminə boylanmasının vacibliyini işıqlandırmışıq. Həmçinin, tarixin dərinliklərindən bu günə qədər müxtəlif cəmiyyətlərdə fədakarlıq simvolu olan Qurban ibadətinin mahiyyətini fərqli bir rakursdan təhlil etmişik.

Dəyərli oxucular!

Bu sayımızda da ənənəmizə sadiq qalaraq ustadımız Osman Nuri Topbaş əfəndinin qələmindən “BİR GÖRƏN VAR!” yazısını da təqdim edirik.

İnanırıq ki, təqdim etdiyimiz bu yazı toplusu həm ailə ocağınızın istisinə, həm də mənəvi dünyanızın zənginləşməsinə xidmət edəcək. Unutmayaq ki, sabahı düzəltməyin yeganə yolu, bu günü haqq və ədalət üzərində qurmaq, özümüzü dəyişmək cəsarətini göstərməkdir.

Xoş mütaliələr arzusu ilə...

İçindəkilər


4
Örnək Nəsil Yetişdirməyin
Yolu Örnək Şəxsiyyət Olmaqdan Keçir
Lamiyə HACIYEVA


6
Uşaq tərbiyəsində
dayələrin rolu
Samirə MAHMUDOVA


8
Uşaq tərbiyəsində
əsrlərin tövsiyəsi...
Məryəm DƏMİR

10
Gül yetişdirmə sənəti
Əlif DÜLDAR

12
Hikmətlərlə dolu HƏCC
F.f.d. Gülnarə SEYİDOVA

16
Tarix boyunca və müxtəlif cəmiyyətlərdə Qurban
f.dr. Sevinc ASLANOVA

18
14 əsr əvvəl gələn həqiqət
Sevinc ŞABANOVA

26
"Uşağı olan onunla uşaqlaşsın"
Şəbnəm ƏNDƏLİFOVA

28
Muhammed Əsad Ərbili (q.s.)
Prof.dr. Nəcdət TOSUN

30
İslamda adlar
Fatimə YUSİFOVA

32
Cəmiyyətin memarlarini taniyirmisiniz?
Səhər AYDIN

35
Yanmaq
Albina AXISKALI


36
Pul hər şey deyil
Azadə YUSIFOVA

38
Ləzzət dünyası
Aygün MƏMMƏDZADƏ

40
Yemək ədəbimiz
GÜLÜSTANDAN


14
Haqqı qəlbində axtar!
Seda TECİM


20
Bir görən var!
OSMAN NURU TOPBAŞ


24
Həsrət yanğını
Aysel VAHABOVA



Yıxan olma, quran ol!

Rəbbimizin rəhmət və mərhəməti qəzəbinə üstün gəlmişdir. Yəni O, cəzaya layiq olan neçə-neçə günahkar qullarını səmimi bir tövbə ilə bağışlayar və qullarının kiçik yaxşılıqlarına belə şanına yaraşan bir cömərtliklə əcir ehsan edər.

Mömin də daima bu rəhmət ilə hərəkət etməli, həlak edən deyil, can verən və çiçəkləndirən bir ruha sahib olmalıdır.

Bir döyüşdə kafirlərin yox olması üçün bəddua etməsi istənilən Allah Rəsulu (s.ə.s.):

*-**"Mən lənət etmək üçün deyil, rəhmət olaraq göndərilmişəm"**, – buyurmuşdur (Müslim, Birr, 87).*

Lamiyə HACIYEVA



ÖRNƏK NƏSİL YETİŞDİRMƏYİN YOLU

ÖRNƏK ŞƏXSİYYƏT OLMAQDAN KEÇİR

Cəmiyyət olaraq tez-tez eyni məsələdən gileylənirik: "Gənclər dəyişib", "Uşaqlar əvvəlki kimi deyil", "Yeni nəsildə dəyərlər qalmayıb". Lakin çox az halda özümüzə bu sualı veririk: "Bəs biz özümüz nə dərəcədə örnək oluruq?" Axı uşaqlar bizim dediklərimizdən çox, hiss etdiklərimizi və gizli qalan vərdişlərimizi mənimsəyirlər.

Unutmamalıyıq ki, tərbiyə bir günün və ya müəyyən bir mərhələnin işi deyil. Tərbiyə ana bətnindən başlayır, ailədə formalaşır və məktəbdə davam edir. Bu prosesdə ailə və məktəb bir-birinə ziddiyyət təşkil edən deyil, bir-birini tamamlayan iki əsas sütun olmalıdır. Əgər valideynin qurduğu mənəvi təməli müəllim möhkəmləndirməzsə və ya müəllimin öyrətdiyi əxlaqı valideyn evdə dəstəkləməzsə, uşağın dünyagörüşündə sarsılmaz bir bütövlük yarana bilməz. Əgər bu iki sütun arasında uçurum yaranarsa, gələcək nəsil o yükün altında əzilər.

Uşaq eşitdiyini deyil, gördüyünü təqlid edir. Ona nə dediyimizdən çox, nə etdiyimiz təsir göstərir. Ailədə böyüklər səbirsiz, məsuliyyətsiz və hörmətsiz davranırsa, məktəbdən möcüzə gözləmək sadəlövhlükdür. Eyni şəkildə, müəllim daşıdığı ülvi ada uyğun davranmırsa, ailənin verdiyi dəyərlər də zədələnir.

Bu günün müəllimləri sadəcə dərs keçən deyil, həm də şəxsiyyət formalaşdıran insanlar olduqlarını unutmamalıdırlar. "Müəllim" adı yalnız peşə deyil, həm də böyük məsuliyyətdir. Həqiqi müəllim sinif otağına daxil olanda yalnız bilik deyil, həm də bir

həyat duruşu gətirir. Davranışı ilə örnək olmayan, ədaləti, mərhəməti və etik duruşu nümayiş etdirməyən müəllimin sözləri sinif otağının divarlarını aşa bilməz. Halbuki davranışı ilə heyranlıq doğuran, duruşu ilə hörmət oyadan müəllimlər cəmiyyətə sağlam nəsillər qazandıra bilər.


Həyatın yazılmamış, lakin dəyişməz bir düsturu var: "Nə tökərsən aşına, o da çıxar qaşığına".

Evində aqressiya görən uşaqdan sakitlik, müəllimində laqeydlik görən şagirddən məsuliyyət, cəmiyyətdə ədalətsizlik görən gəncdən dürüstlük gözləmək ədalətli deyil. Biz gənclərdən şikayət edərkən, əslində öz əkdiyimiz toxumların acı meyvəsindən narazılıq edirik. Örnək nəsil nəsihətlə deyil, şəxsiyyət nümunəsi ilə yetişir. Uşağa "doğru ol" deməklə yox, doğru davranmaqla; "hörmət et" deməklə yox, hörmət göstərməklə; "çalışqan ol" deməklə yox, çalışqan olmaqla nümunə göstərməliyik. Ailədə valideyn, məktəbdə müəllim eyni dili danışdıqda və eyni dəyərləri yaşatdıqda bu torpaq sağlam nəsillər yetişdirə bilər.

Əks halda, davamlı gileylənmək, günahı dövrdə, sistemdə və ya texnologiyada axtarmaq sadəcə məsuliyyətdən qaçmaqdır. Texnologiya yalnız bir vasitədir; ona hansı mənəvi ruhu üfürmək isə bizim əlimizdədir. Gələcək nəsil bizim bugünkü halımızın güzgüsüdür. O güzgüdə gördüyümüz təsvir xoşumuza gəlmirsə, aynanı deyil, özümüzü dəyişməliyik. Çünki sağlam cəmiyyət tərbiyəli uşaqlarla deyil, tərbiyəli valideynlər və adına layiq müəllimlərlə formalaşır.

Gəlin, gələcək nəsli dəyişmək iddiası ilə deyil, özümüzü dəyişmək cəsarəti ilə yola çıxaq. Hər birimiz valideyn, müəllim və ya sadəcə cəmiyyət üzvü kimi duruşumuzla örnək olaq. Çünki sabahı düzəltməyin yeganə yolu bugünü doğru yaşamaqdır.

Uşaq eşitdiyini deyil, gördüyünü təqlid edir. Ona nəyi deməyimizdən çox, nəyi etdiyimiz təsir göstərir. Ailədə böyüklər səbirsiz, məsuliyyətsiz, hörmətsiz davranırsa, məktəbdən möcüzə gözləmək sadəlövhlükdür. Eyni şəkildə, məktəbdə müəllim daşıdığı ülvi ada uyğun davranmırsa, ailənin verdiyi dəyərlər də zədələnir.



Samirə MAHMUDOVA

Uşaq tərbiyəsində dayələrin rolu



Hər doğulan körpə valideynləri üçün bir sevinc və sevgi qaynağı olmanın yanında bəzi məsuliyyətləri də özü ilə bərabər gətirir. Valideynlər doğulan körpələrinin sağlam və qüsursuz olduğunu görüncə rahatlanır, lakin uşağı necə böyütmək və tərbiyə etmək mövzusunda zərrə qədər narahatçılıq keçirmirlər. Əslində, körpənin ən təhlükəsiz və etibarlı yeri ana bətnidir. Körpə dünyaya göz açdığı gündən etibarən isə artıq onun maddi, mənəvi və ruhi inkişafı üçün diqqətli baxıma və doğru tərbiyə edilməyə ehtiyaci var.

Uşaq tərbiyəsində ən mühüm iş, tətbiq ediləcək metod və prinsipi düzgün seçməkdir. Uşaq ata-anasına əmanətdir. Onun təmiz qəlbi hər cür əyrilik və şərdən uzaq, saf və bərraqdır. Uşaq xeyrə alışdırılar, yaxşılıq tələqin edilərsə, xeyirli bir nəslin nümayəndəsi olaraq yetişər. Əksinə, ətraf mühitdən gördüyü mənfi xislətlər və davranışlar onun gələcək inkişafı üçün təhlükə yarada bilər. Bunda əsas faktorun ata-ana və dayələrin üzərinə düşdüyünü vurğulamaq lazımdır.

Niyə dayələr? Cünki zəmanəmizin tələblərindən biri də işləyən ata-anaların körpələrinin dünyaya gəlişi ilə bir müddət sonra ya ehtiyac üzündən ya da karyera qurma kimi səbəblərlə övladlarını dayələrə əmanət etmələridir.

Təbii ki, dayələr də analar kimi uşaqların maddi baxımını üzərinə alır, yəni yedizdirir, içizdirir və yatızdırırlar. Əsas diqqət yetirilən xüsus onların mənəvi tərbiyəsinə nə dərəcə xidmət edə bilirlər? Çünki körpələrə maddi qayğının yanında mənəviyyatın aşılanması, düzgün xarakterin formalaşması və şəxsiyyətin oturması kimi prinsiplər tələqin edilməli, onun insan kimi yetişdirilməsinə diqqət yetirilməlidir.

Təəssüflər olsun ki, bu kimi kriteriyalar hər valideynin fikir vermədiyi, nəzərdən qaçırdığı, xüsuslardır. Dayələr tutulduğu zaman əsas fikir verdikləri nöqtələr uşağı vaxtında yedizdirib yatızdırmaq və gəzdirməkdir. Onların düzgün xarakterlərinin formalaşmasına səbəb olan oyunlar, nağıllar və dastanları hər dayə bilməz. Halbuki uşaqlara maddi qayğının yanında mənəvi ruhun aşılanması və inkişaf etməsi üçün dini motivləri içinə alan nağıl və dastanları oxutmaq, yaxşı xislətlərə və davranışlara sahib olması üçün faydalı, ibrətamiz məsəllər və hekayələr (peyğəmbərlərin həyat hekayələri də ola bilər) danışmaq uşaqların yaxşı xüsusiyyətlərlə tərbiyə edilməsinə səy göstərmək, onun gələcəkdə ailəsinə və

vətəninə yararlı və sağlam bir nəsil kimi yetişməsinə səbəb ola bilər.

Dayələr aranarkən diqqət yetiriləcək əsas faktorlardan biri də dayələrin əsəbi, səbirsiz və sinir pozğunluğu yaşayan və ya problemli insanlar olmamalarıdır. Əsəbi bir insan etdiyi bir yanlış hərəkət qarşısında çığırıb-bağırmamalı, etdiyi yanlışı düzəltməyin yollarını səbir və təmkinlə başa salmalıdır. İmam Qəzzali bu xüsusda tərbiyəçilərin məsuliyyətinin nə qədər böyük olduğunu belə vurğulayır:

"Təlim və tərbiyə ilə məşğul olan bir insan, bəşərin qəlbləri və ruhları üzərində tasarrufda olan insandır. Yer üzünün ən şərəfli varlığı insan cinsidir; İnsanın ən dəyərli varlığı da onun qəlbidir. Tərbiyəçi isə belə dəyərli olan insan qəlbini mükəmməlləşdirmək, təmizləmək və Allaha yaxınlaşmağa sövq etməklə məşğul olan insandır".

Bu səbəbdən valideynlər övladlarını dayələrə verərkən əxlaqlı insanlar olmalarını əsas faktor olaraq görməli, uşaqlarının yaxşını pisdən ayıracaq xüsusiyyətlərlə yetişməsini əsas səbəb kimi görməlidirlər. Dayələr də onlara əmanət edilən körpələrin həm ruhən və mənən, təmiz xislətli yetişmələrinin şüuru içində olmalarına diqqət yetirməlidirlər. Təlim və tərbiyədə uğur qazanmanın əsas şərti, tərbiyəçilərin sözləri və tövsiyələri ilə yaşayışlarının bir-birinə paralellik ərz etməsidir. Elm adamları Hz. Məhəmməd (s.ə.s.)in təbliğ və irşadlarındakı misilsiz uğurunun onun öz əmir və tövsiyələrini sırf özünün dəqiqliklə tətbiq etməsində görürlər. Buna görə öncə valideynlər bu mövzuda Rəsulullahı örnək almalı, əməl və davranışlarına fikir verməli, eyni zamanda əmanət etdikləri dayələri seçərkən onlara verilən məvaciblərinin az olmasına deyil, əxlaqi keyfiyyətlərinin üstün olmasına fikir verməlidirlər. Çünki xeyirli övlad xeyirli bir tərbiyənin məhsuludur.

NEYLƏSİN?

Qafilanə könül eşqindən uzaq,
Könül pas tutmuşsa, dillər neyləsin?
Cənnət Camalının zövqünü verməz,
Camalına aşiqlər Cənnəti neyləsin?

Bu könül eşqinə hər dəm pərvanə,
Dilər ki, aşiqlər bu eşqlə yanə.
Neçə qəlblər vardır sanki meyxanə,
Bu sərxoş qəlblərə Quran neyləsin?

Fənafil ixvandan keçdi bu könül,
Şeyxin eşq şərbətin içdi bu könül,
Fənafir Rəsulla coşdu bu könül,
Eşqinə yananlar sənsiz neyləsin?

Susamış aşiqlər eşqini qana,
Əsl aşiq odur ki, eşqinlə yana,
Sanarlar dəlidir derlər divanə,
Nəsibi olmayan canlar neyləsin?

Könlümün sultanı həbibim Allah,
Cəmalın eşqiylə yanaram billah.
Buraxdım hər şeyi əl-mülki lillah,
Biçarə aşiqin sənsiz neyləsin?

Dünya münafiqlə fasiqlə dolu,
Bilməzlər bu yolu bu yol haqq yolu.
Eşqinlə yananlar bilər bu yolu,
Zəncirə vurulmuş ruhlar neyləsin?

Könül quşum hər an hu deyib durur,
Qularının qəlbi sənlə vurur.
Aşikar hər kəsə hər kəs ki bilir,
Leyla səni istər, sənsiz neyləsin?

Qasımova Leyla

Məryəm DƏMİR



UŞAQ TƏRBİYƏSİNDƏ ƏSRLƏRİN TÖVSİYƏSİ...

İnsanlıq aləmi Adəm (ə.s.) ilə başlamış və hansı əsrə qədər var olacağı bilinmir. Uşaq tərbiyəsi də buna daxildir, hər əsrdə "ana - ata – uşaq" bərabərliyi adlar, məkanlar dəyişərək davam edir. Bizlərə hər halıyla işıq tutan Rəsulullah (s.ə.s.) neçə əsr bundan əvvəl, fərdi inkişafa dair kitablar yazanlara meydan oxuyarcasına bizlərə "nə etsək daha sağlam nəsillər yetişdirərik?" prinsipini anlatmış və "nə etsək daha mükəmməl ana-ata olarıq?" ideyasını öz həyatında tətbiq edib, bizlərə bildirmişdir.

Aləmlərə Rəhmət Peyğəmbərimizdən uşaqları öpməyin deyənlərə cavab:

Hz. Peyğəmbərimiz hər fürsətdə uşaqları öpər, onları qucağına alar və əzizləyərdi. Əbu Hüreyrə (r.a.) belə bir hadisəni nəql edir:

Rəsulullah (s.ə.s.) nəvəsi əl-Həsən ibn Əlini öpdü, bu əsnada yanında əl-Akra ibn Xəbis ət-Təmimi oturmuşdu. əl-Akra:

"- Mənim on dənə uşağım vardır, onlardan heç birini öpməmişəm", dedi. Rəsulullah ona baxdı, sonra da:

«-Mərhəmət etməyənə mərhəmət olunmaz» buyurdu. (Buxari, Ədəb, 18)

Bir başqa hadisədə isə Hz. Aişə anamız belə bir rəvayət söyləmişdir: Bədəvi bir ərəb gəlib Peyğəmbərə:

"-Ya Rəsulullah! Sizlər uşaqları öpüb sevərsinizmi? Biz uşaqlarımızı öpüb əzizləmərik", dedi.

Peyğəmbər (s.ə.s.): «Allah sənin könlündən mərhəmət və şəfqəti çəkib çıxarmışdır. Mən sənin üçün nə edə bilərəm?» deyə cavab verdi. (Buxari, Ədəb, 18)

Aləmlərə Rəhmət Peyğəmbərimiz uşaqlarla böyüklərlə eyni davranışı sərgiləmişdir :

Sevimli Peyğəmbərimiz uşaqlara dəyər vermiş, onların yanlarından keçərkən böyüklərə verdiyi salamın eynisini onlara da söyləyərmiş. (Müslim, Salam, 15)

Hz. Peyğəmbər uşaqların etmiş olduqlarından ötəri onların könüllərini qırmamış onları heç bir zaman incitməmişdir. Uşaq yaşında Peyğəmbərimizə xidmət etmək üçün verilən Ənəs (r.a.) belə demişdir:

Rəsulullah (s.ə.s.) Mədinəyə gəldiyi zaman onun heç bir xidmətçisi yox idi. Ögey atam, Əbu Talha məni əlimdən tutub, Rəsulullahın yanına apardı və:

"- Ya Rəsulullah! Ənəs ağıllı bir oğlandır. Sənə xidmət etsin", dedi.

Artıq mən bundan sonra səfərdə və hər yerdə daim Rəsulullaha xidmət etdim. O, xidmət göstərdiyim müddətdə mənə etdiyim bir şey üçün «Sən bunu nə üçün belə etdin?» demədi. Etmədiyim bir şey üçün də «Bunu nə üçün belə etmədin?» də demədi. (Buxari, Vesaya, 26)

Aləmlərə Rəhmət Peyğəmbərimiz uşaqlara onların eşidəcəyi səsdə dua etmişdir:

Uşaqları qucağına alıb onlara dua edərdi. Usamə b. Zeyd bizlərə belə bir rəvayət demişdir:

Rəsulullah (s.ə.s.) məni götürüb, dizi üzərinə oturdardı, Həsəni də o biri dizinə oturdardı. Sonra bizi sinəsinə basar: «Allahım, bu ikisinə rəhmət (və səadət) lütf et! Çünki mən bunlara rəhmət (xeyr və səadət) diləyirəm!» deyərdi. (Buxari, Ədəb, 22)

Aləmlərə Rəhmət Peyğəmbərimiz uşaqlarla zarafatlaşardı:

Sevimli Peyğəmbərimizin uşaqlara qarşı göstərmiş olduğu davranış modellərindən biri də zarafatlaşmaq idi. Hz. Ənəs (r.a.) dan rəvayətə görə, Rəsulullah (s.ə.s.) biz uşaqlarla birlikdə olduğumuz zaman aramıza qarışardı. Hətta mənim kiçik qardaşıma belə; «Ey Ömərcik quşun nə haldadır?» deyərək zarafatlaşardı. (Tirmizi, Birr, 57)

Hz. Peyğəmbərimiz (s.ə.s.) heç bir zaman qaraqabaq bir üz ifadəsiylə insanları qarşılamamışdır. O uşaqlara qarşı həmişə sevgi ilə yaxınlaşmış, onlarla zarafatlaşmışdır. Ənəs b. Malik bu barədə bizlərə bunları demişdir: «Peyğəmbər (s.ə.s.) bizimlə birlikdə olar və gülərüzlə biz uşaqlara lətifə danışardı» (Buxari Ədəb, 81).

Bizlər də maddi, mənəvi olaraq uşaqlarımıza Peyğəmbərimizin uşaqlara davrandığı kimi davransaq nə sevgidən məhrum qalarlar, nə məhəbbətdən.. İndiki vaxtda yazılan kitablardakı cavablar əsrlərdən əvvəl Peyğəmbərimiz tərəfindən bizlərə bildirilmiş, tətbiq etmək bizim ixtiyarımıza verilmişdir. Ya reseptlərdən nəsibimizi alarıq, ya da cavabı axtarmaq üçün qıvrılarıq..

Hz. Peyğəmbərimiz (s.ə.s.) heç bir zaman qaraqabaq bir üz ifadəsiylə insanları qarşılamamışdır. O uşaqlara qarşı həmişə sevgi ilə yaxınlaşmış, onlarla zarafatlaşmışdır.

Əlif GÜLDAR



GÜL YETİŞDİRMƏ SƏNƏTİ

Kiçik qız anasını sevindirmək üçün bir stəkan su ilə bir dəstə çiçək aparırdı. Nərdivanları çıxarkən ayağı ilişib yıxıldı, stəkan qırıldı. Anası qızının nə etmək istədiyini öyrənmədən qızına bir yumruq vurdu. Bununla da kifayətlənməyib, bir tərəfdən də "gözəl stəkanımı qırdın hə?" deyə qışqırırdı. Təqdir və sevgi gözləyən qız, bir də yumruq yemişdi. Edilən haqsızlıq qarşısında çox hiddətləndi, uzun müddət olanları unuda bilmədi. Anasına qarşı daim kin saxladı ona bir daha çiçək hədiyyə etdiyi görülmədi. Uşaqlarımızın duyğularına dəyər verməzsək onlara haqsızlıq etmiş olarıq.

Uşaqlar ana və atalara Cənabı Haqqın bir əmanətidir. İki dünyada göz nuru olacaq övladlar yetişdirmək istəyiriksə bizlər də nümunəvi və mükəmməl ana, ata olmağa cəhd göstərməliyik. Yaxşı bir uşaq yetişdirmək xəzinə dolusu sərvətdən daha xeyirlidir, çünki onlar yaşayan xəzinələrdir.

Yaxşı bir münasibət qurmağın yolu uşağı və özümüzü anlamaqdan başlamalıdır. Peyğəmbərimiz (s.ə.s.) buyurur: *"Bütün uşaqlar Müsəlman (İslam fitrəti üzərinə) olaraq dünyaya gəlir, daha sonra bunları ana, ataları Xristian, Yəhudi və ya dinsiz edir"*. Hədisi-şərifdə uşaqların Müsəlman olaraq yetişdirilməsi və ya Müsəlmanlıqdan uzaq olaraq yetişdirilməsində ən mühüm iş uşaqlıqda və gənclikdə aldığı təhsil və tərbiyədir. O halda hər Müsəlman ana və atanın birinci vəzifəsi övladına İslamiyyəti və müqəddəs kitabımız Qurani Kərimi öyrətməkdir. Övlad nemətinin qiyməti bilinməzsə əldən gedər. Bunun üçün uşaq tərbiyəsi dinimizdə çox qiymətli bir elm sayılır. Rəbbimizin lütfü və əmanəti olan balalarımıza sahib çıxmalı və gözəl əxlaqla yetişmələri üçün cəhd göstərməliyik. Dinin əmrlərinə uyğun yaşayan, qadağalarından qaçan, şərəfini gözəlləşdirər, gözəl əxlaq sahibi olar. Gözəl əxlaqlı və möhkəm xarakterli olan insan hər iki dünyada da hüzura, səadətə və salamatlığa qovuşar, rahatlayar.

Ana və ata qətiyyən, kiçik yaşlarda belə olsa uşağı döyməməlidir. Səbirli olub gözəl tərbiyə verməyə çalışmalıdır. Tərbiyə olunan uşaq gözəlləşər, özünə inamı artar. Heç bir zaman alma toxumundan portağal olmaz. Lakin alma cücərtisini böyüdərək lazımlı peyvənd və tədbirlərlə keyfiyyətli bar verən bir ağac kimi yetişdirmək mümkündür. Gül

yetişdirmək də böyük bir əmək istəyir. Ana və ata da bir bağban kimi səbirli və çalışqan olmalıdır. İnsan təbiətində olan bəzi arzular yox edilməz, lakin tərbiyə edilə bilər. Tərbiyə metodlarında şiddət ola bilməz. Uşağı döymək əxlaqının pozulmasına və daha da tərsləşməsinə səbəb olar. Döyülərək böyüyən uşaq anlayışlı və mülayim ola bilməz, kobud olar. Döyülmək ana-ataya qarşı kinə gətirib çıxarar. Uşaq öz etdiyinin pis bir şey olduğunu düşünməz özünü günahkar görməz, özünü döyəni günahlandırar. Döyülmək uşağın təcavüzkar olmasını təmin edər, başqalarını da döyə biləcəyini düşünər. Sözdən anlamayan uşağı əsla vurmaq olmaz.

Uşaqların əxlaqının yaxşı olması üçün dostlarının da tərbiyəli olması vacibdir. Gözəl xüsusiyyətlər bir müddət sonra onun xasiyyətinə çevrilər. "Gənclik bir millətin gələcəyinin aynasıdır". Gənclik bir millətin ümidi və gələcəyidir. Gəncliyin xarakterinin inşasında möhkəm bir modelə ehtiyac vardır. Gənclikdə yoldaş çox əhəmiyyətlidir. Yoldaşın pisi bir gəncin başına gələ biləcək ən böyük fəlakətdir. Gəncliyə özlərinə nümunə ala biləcək öndərlər və şəxsiyyətlər təqdim etməliyik. Bunlar bizim tarixi dərinliklərimizdən məlumdur.

Gözəl bir söz vardır: "Bir il sonrasını düşünürsənsə buğda, on il sonrasını düşünürsənsə ağacək, əsr sonrasını düşünürsənsə insan yetişdir" demişlər. Uşaqlarımızı məntiqli və yaradılışına uyğun olaraq öyrətməli və yetişdirməliyik. İnsanın qurtuluşu yaxşı bir təhsillədir. Uşağımızı çox tənqid etsək qınama və ayıblama öyrənər, kin və dava-dalaş mühitində böyütsək dalaşmağı öyrənər. Lağ edilsə sıxılıb utanmağı öyrənər. Əgər davamlı utanc duyğusuyla böyüsə özünü günahlandırmağı öyrənər. Xoş münasibət ilə öyrədilsə uşaqlarımız səbirli olmağı öyrənər. Dəstəklənib ürəkləndirilsə yaxşı işlərdə özünə güvən duyğusu inkişaf edəcək. Gözəl hərəkətləri tərifləsə təqdir etməyi öyrənəcək. Dəstək və güvən görmüş bir uşaq ailəsini və özünü sevməyi öyrənəcək. Ailəsinin içində dostluq və yoldaşlıq görmüşsə xoşbəxt olmağı biləcək. Uşaqlarımıza israf etməməyi və təvazökar olmağı, yeri gəldiyində aza qənaət etməyi öyrətməliyik.

Ata uşaqlarla nə çox mülayim olmalı, nə də sərt olmalıdır. Danışmasının səviyyəsini qorumalıdır. Ana və ata uşaqlarına; Xəsisliyin çirkinliyini, comərdlərin cənnətə girəcəyini öyrətməlidir. Nəzakətli və zərif olmağın, səbirli və ədəbli olmağın, yeri gələndə susmağın, böyüklərə hörmətin Peyğəmbər və İslam əxlaqı olduğunu izah etməlidir. Onları kiçikkən namaz qılmağa alışdırmalıyıq əks halda böyüyüncə namaz qılmaq çətin gələ bilər. Hər işini şüurlu və anlayaraq etməli olduğunu bildirməliyik.

Yemək-içməkdə məqsədin, yalnız qidalanmaq deyil yaşamaq və Rəbbimizə ibadət etmək üçün olduğunu izah etməliyik. Uşaqlara kiçik yaşda; insanlara, vətəninə, millətinə, torpağına, bayrağına, milli və mənəvi dəyərlərinə faydalı olmaları, insanlarının səadəti üçün çalışmasının vacibliyini anlatmalıyıq. Dünyaya gəliş səbəbimizin də axirətə azuqə yığmaq üçün olduğu, çünki dünyanın heç kimə qalmadığı, ölümün tez və bir anda gələcəyini izah etməliyik.

Xoşbəxtdir, o kəslər ki, dünyada ikən axirət hazırlığını görür və belə də övlad yetişdirir…

"Bir il sonrasını düşünürsənsə buğda, on il sonrasını düşünürsənsə ağac ək, əsr sonrasını düşünürsənsə insan yetişdir" demişlər. Uşaqlarımızı məntiqli və yaradılışına uyğun olaraq öyrətməli və yetişdirməliyik. İnsanın qurtuluşu yaxşı bir təhsillədir. Xoşbəxtdir, o kəslər ki, dünyada ikən axirət hazırlığını görür və belə də övlad yetişdirir…

“BİZİM AİLƏ”dən
F.f.d. Gülnarə SEYİDOVA
g.seidova@yahoo.com

Hikmətlərlə dolu HƏCC



Həcc mövsümü yaxınlaşdıqca insanın təfəkkür etmək üçün səbəbləri çox olur. Həcc insanlıq tarixi ilə başlayan və min illərdir davam edən ənənə olmaqla yanaşı, insanlar üçün imtahan, ibrət, dərs alma yeridir. Hər il milyonlarla müsəlman dünyanın ən qədim məscidi və Allahın Beytül-Haramı olan Kəbəyə axın edir. Bundan qabaq gündə beş dəfə yönəldikləri o müqəddəs evdə indi hacı olmaq üçün tələsirlər. Milyonlarla insanın bir evə yönəlməsi qədər möhtəşəm nə ola bilər? Kitabları, peyğəmbərləri və məqsədləri bir olan bu insanların qurduğu toplum tövhid anlayışını idrak etmək üçün çox vacibdir. Kəbəyə olan bu axın həm də Allahın birliyinin elanıdır. Tövhid əqidəsi həcc sayəsində insanların qəlbində daha da qüvvətlənir. Ora gedən daş qəlbli də olsa mülayimləşib gəlir.

Həcc mərasiminin hər mərhələsində ayrı bir hikmət var. Həcc mərasiminin hikmətlərini idrak etdikcə yaşanan çətinliklər insana həzz verir. Həcc məhəbbət və mərifətlə icra edilir. Orada sevgi və mərhəmət, Allah yolunda həm fədakarlıq, həm də cihad vardır. Həccın əsas məqsədlərindən biri də müsəlmanların dini, siyasi, sosial və iqtisadi problemlərinə çarə tapmaqdır. Həmçinin, müsəlmanların birlik və bərabərlik şüurunun oyanmasına vəsilə olmaq həccin əsas məqsədlərindəndir. Müsəlmanlar tək bir bədən kimi olmalıdırlar. Hədisi-şərifə görə, möminlər bir-birini tamamlayan bir binanın daşları kimidir.

Həcc insanı Allaha yaxınlaşdıran ibadətdir. İnsan zəkası həccin bir çox mərasimini idrak etməkdən acizdir. Şeytan daşlama, Hacərül – Əsvədin öpülməsi, say və təvafın ilk üç şərtində qaçmaq və Müzdəlifədə yatmaq kimi mərasimlərin hikmətlərini bilməmək, həcc ibadətinin ülviyyətinə zərər verməz, əksinə onu daha da ucaldar. Çünki həcdə edilən

bütün ibadətlər dinin önəmli əlamətlərindəndir. Onların yerinə yetirilməsində, Allahın sevdiklərini sevmək, dostlarına dost, düşmənlərinə də düşmən olmaq kimi çox böyük hikmətlər var. Həcc ibadətini yerinə yetirmək, Quranın ifadəsi ilə, Allahın işarələrinə (həcc ibadətlərinə), ya da Allahın qadağalarına hörmət göstərməkdir. Yəni, idrak etsək də, etməsək də qeyd-şərtsiz təslim olmaq, Allah və Rəsulunun buyurduqlarına tabe olub qanunlara tam riayət edə bilməkdir.

Həcc deyildiyi zaman heç şübhəsiz ilk ağıla gələn Kəbədir. Kəbə Beytullah (Allahın evi) olaraq yerüzündəki tövhidin simvoludur. Həcc mərasimində ilk ziyarət olunan yer də elə Kəbədir. Kəbə dünyanın mərkəzi, ilk insan Həzrət Adəmin evi, Həzrət İbrahimin Həzrət İsmayılla imtahan olunduğu, Həcər anamızın övlad imtahanını yaşadığı, əziz Peyğəmbərimiz Həzrət Muhammədə (s.ə.s.) ilk vəhyin verildiyi, İslam yolunda mübarizəsi və qalibiyyətinin yaşandığı yerdir. Kəbə ətrafında dönərkən bütün bunları düşündükcə insan təfəkkür aləmində o anları canlandırır. "Ey Kəbə sən nələrə şahidsən?" deməmək mümkün deyil.

Kəbəni təvaf Həcərül-Əsvədlə başlayır. Kəbəni təvaf edən ya da Həcərül-Əsvədi öpüb salamlayan mömin, bunların daş olduğunu bilir. Hz. Ömərin (r.a.) Həcərül-Əsvədlə əlaqəli dediyi bu sözü çox mənalıdır: "Ey daş, sənin nə zərər, nə də xeyir verən daş olduğunu bilirəm. Əgər Rəsulullahın (s.ə.s.) səni öpdüyünü görməsəydim səni öpməyəcəkdim". Hz. Ömərin bu sözü dini məsələlərdə qanun qoyanın əmrinə təslimiyyəti ifadə etməklə yanaşı, hikmətini bilmədiyimiz əmrlərə tabe olmağın da gərəkli olduğunu vurğulayır.

Həcc mərasiminin hər mərhələsi hikmətlərlə dolu olub, insanlıq tarixini özündə əks etdirir. Bu hikmətlərdən ən təsirlisi də Həcər anamızın təslimiyyəti və inancının böyüklüyünə görə qazandığı dəyərin nəticəsidir ki, min illərdir zəvvarlar onun tələşlə qaçdığı Səfa-Mərvə təpələrində eyni onun kimi qaçırlar. Həcər anamız qaradərili, kölə olan bir qadın idi. Allah təslimiyyəti səbəbi ilə ona elə bir uca məqam verdi ki, peyğəmbər xanımı və peyğəmbər anası oldu. Onu köləlikdən ucaldıb insanlığa ana etdi. İslamın əsas şərtlərindən olan həcc mərasimində Səfa-Mərvə təpələri arasında Həcər anamız kimi qaçmayanın həcc ziyarəti yarımçıq qalar. Hətta məqbul olmaz. Bu qadına dəyər verməyənlər, zəif görənlər üçün böyük hikmət və ibrət mövzusudur.


Qurban bayramının ilk günündən etibarən başlanan şeytan daşlama mərasimi də ibrət və hikmətlərlə doludur. Həzrət İbrahimin şeytanı daşlamasından qalan ənənə həcc mərasiminin əsas şərtlərindəndir. Şeytandaşlama, şeytanlardan və şeytan kimi düşünən insanları özündən uzaqlaşdırmağı ifadə edir. Həmçinin bu ibadəti edərkən hər kəs əslində öz nəfsini, əl çəkə bilmədiyi günahlarını daşlayır.

Həcc Allahın əmr və qadağalarını qəbul etmək, Onun hökmü ilə razılaşmaq, qəza və qədərinə təslim olmaq, Rəbbül-Aləmin olan Allahın nizamını bütünlükdə qəbul etməkdir. İbadətlər sayılmayacaq qədər çox hikmətləri olmaqla yanaşı, yerinə yetirilməsi əsas olan Allahın əmridir.

Həcc ibadətini etmək üçün Kəbə yollarına düşən bir mömin Allahın dəvətini qəbul etmiş, imanın səsini dinləmişdir. Bütün dünyəvi işlərini tərk edib axirətə hazırlıq üçün xalis niyyətlə Allahın evi olan Kəbəyə yönələrək imanın zirvəsini göstərmişdir.

Uca Allah saf niyyətlə həcc yoluna çıxan bütün zəvvarların ibadətlərini qəbul etsin. Qarşıdan gələn Qurban bayramımız mübarək olsun!

Seda TECİM



Haqq qəlbində axtar!

Bazarda buz satan adam hər gün oradan keçənlərə;

"Buz alın, buz var. Buz alın!" deyərək az qala insanların qollarından tutub buz satmağa çalışırdı. "Ona, niyə bu qədər təkid edirsən, almağa məcburuq?" deyincə "Eeh, əriyir axı" deyirdi.

Xalidi Bağdadi həzrətləri bu əhvalatı eşidib özündən gedir. Ayılanda yanındakılar nə baş verdiyini soruşur:

"Onun satdığı buzda öz ömrümü gördüm. Nə üçün zamana and olunduğunu və nə üçün insanın zərərdə olduğunu indi daha yaxşı başa düşdüm. Onun maddi sərmayəsi olan buzları isti necə əridirsə, zaman da bizim ömrümüzü elə tükədir". Saniyə-saniyə, dəqiqə-dəqiqə… "Ömür buz"umuz da belə əriyir. Hiss edə bilirsiz? Əriyib gedən buzumuzu satdıqsa satdıq, satmadıqsa heyif oldu getdi.

"Nəfs və malını Allah-Təalaya satmaq və ona qul olmaq necə qazanclı ticarət, necə şərəfli rütbədir…"

Rəbbim qısa olan həyat yolumuzda bizdən əsl qulluq istəyir. Saysız-hesabsız nemətlərlə dolu dünyada halal olanlardan istifadə edib onları bizə bəxş edəni də unutmamalıyıq. Qəlbimiz hər zaman yaradılışımıza uyğun olsa da, ağlımız bəzən dünyanın qalıcı olmayan cazibədarlığında, sevgisində ilişib qalır. Yalançı dünyanın keçici sevgisi insanı qəlbinin yolundan ayırır. Buna görə sadə yaşamaq, düzgün və səmimi olmaq, qəlb dünyamızı qarmaqarışıq hala gətirməməliyik.

Qələbəlik dünyada yaşayırıq. Yolumuzu itirməmək üçün Rəbbimiz bizə işarələr göstərib: Namaz, Ramazan, Həcc, Qurban, Qurani-Kərim. Bir-birindən qiymətli ikramlar və lütflər...

Namaz gündəlik həyatımızda alnımızı və könlümüzü Rəbbimiz ilə qovuşduran ülvi dəvətdir.

Ramazan şəfqət, mərhəmət, məhəbbət, paylaşmaq və qardaşlığın ən üst səviyyədə olduğu rəhmət iqlimi, bütün müsəlmanları ağuşuna alan bərəkət yağışıdır.

Ramazan ayından sonra isə Həcc və Qurban ibadəti gəlir. Hər iki ibadətin vaxtı da eyni zamana təsadüf edir. Hər ikisində də yüzlərlə hikmət və sirr var. Həcc ibadəti məhşərdəki izdihamlı görüşün məşqidir sanki. Qurban isə fədakarlığın simvolu...

Möhtərəm Osman Nuri Topbaş üstadımız Həcc ibadətini necə gözəl ifadə edir: "Həcc İslamın 5 təməl dirəyinin sonuncusu və tamamlayıcısıdır. Ən son fərz qılınan ibadətdir. Kəbə cahanın qəlbidir. Həcc ibadəti cahanın qəlbi olan Kəbə bütlərdən təmizləndikdən sonra fərz qılındı. Bu, Həcci ürəkdən yerinə yetirmək istəyənlərin qəlblərini nəfsə uyub hərəkət etməkdən və nəfsani meyillərdən təmizləməyin zəruriliyinə işarə edir. Belə ki, "Həcdə çirkinlik yoxdur" buyurulmaqla insanı qəflətə apara bilən hər cür davranışlardan qulun qorunması istənilir".

Həcc bizə Hz. İbrahimdən bir xatirədir. Bu böyük Peyğəmbərin həyatına baxdığımızda onun da qəlbinin Allahla bərabərliyi xüsusunda böyük fədakarlıq imtahanı verdiyini görürük.

Mənəviyyat əhli deyir ki;

Hakk'ı arar isen kalbinde ara,

Kudüs'te, Mekke'de, hacda değildir...

Bu səfərə çıxan mübarək şəhərlərə çatdığı zaman Kəbəyə Babı-İsmayıldan "İsmayıl təslimiyyəti və bağlılığı" ilə girə bilməli, həyata elə davam etməlidir. Ucsuz-bucaqsız, susuzluqdan qovrulan çöldə o qədər çətinliklərə baxmayaraq Həcər anamız kimi çox səbir etməli, İbrahim peyğəmbər kimi əhdinə sadiq qalmalıdır. İnsan eşqlə getməli, eşqlə gəlməli, eşqlə yaşayıb eşqlə ölməlidir.

Qurban ağlı qəlbə təslim etmək, əziz candan ən Sevgili olan üçün vaz keçməkdir. Həcc mövsümü Allaha qurban olmaq yolunda adanma mövsümüdür. Bu mövsümdə canın və övladın yerinə fəda olunan qurbanımızla vəzifəmizi yerinə yetiririk. Qurban sadəcə pul ödəməklə icra olunan vəzifə deyil, çox böyük təslimiyyət və bağlılığın simvoludur.

Qurbanda Hz. İbrahimin fədakarlığı, Həcər anamızın səbri, Hz. İsmayılın təslimiyyəti və neçə-neçə hikmətlər gizlidir. Qurban əslində ildə bir dəfə deyil, hər an Allaha bağlılığın bir simvoludur.

Sevgi şairi Füzulinin bu misraları ürəyi Allah və peyğəmbər eşqi ilə dolu olan insanların hisslərinə ən gözəl şəkildə xitab edir:

İldə bir qurban kəsərlər
xəlq-i aləm eyd üçün
Dəm-bə-dəm, saət bə-saət
mən Sənin qurbanınam

Qurban, Müsəlman qardaşlar arasında böyük sevgi və məhəbbəti paylaşmaq üçün bir səbəb olmaqla, həyatımıza yeni anlam və hiss qatacaqdır.

Qurbanda Hz. İbrahimin fədakarlığı, Həcər anamızın səbri, Hz. İsmayılın təslimiyyəti və neçə-neçə hikmətlər gizlidir. Qurban əslində ildə bir dəfə deyil, hər an Allaha bağlılığın bir simvoludur. Sevgi şairi Füzulinin bu misraları ürəyi Allah və peyğəmbər eşqi ilə dolu olan insanların hisslərinə ən gözəl şəkildə xitab edir:

İldə bir qurban kəsərlər xəlq-i aləm eyd üçün

Dəm-bə-dəm, saət bə-saət mən Sənin qurbanınam

Rəbbimiz hər anımızı onun rizasını qazanacaq ömür və doğru yolda olmağı bizə lütf etsin. Həccə gedən bacı-qardaşlarımızın həcləri qəbul olsun. Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəllikər nəsib et! Bizi cəhənnəm əzabından qoru! Amin!

İ.f.dr. Sevinc ASLANOVA

TARİX BOYUNCA VƏ MÜXTƏLİF CƏMİYYƏTLƏRDƏ QURBAN

Qurban zaman, məkan və tətbiqlər dəyişsə də mahiyyət baxımından dəyişməyən və ilk insan Hz. Adəmin oğullarının təqva imtahanı ilə başlayan, Hz. İbrahim və oğlu Hz. İsmailin ixlas və səmimiyyətini, Allaha sədaqətinin əməldəki təzahürünü ifadə edən təslimiyyət mirasıdır. Ərəb dilində "Allahın rəhmətinə yaxınlaşma" mənasında işlənən "qurban" insanın yaradılış tarixi ilə başlayıb, Hz. İbrahimlə yenilənib, Hz. Məhəmmədlə (s.ə.s.) təqva və təslimiyyətdə ucalan əsri-səadətdə birlik, bərabərlik və yardımlaşmada səmimiyyəti təmsil edən sosial məktəb oldu.

Mahiyyət etibarı ilə saflığı, səmimiyyəti, təslimiyyəti təmsil edən qurban təəssüf ki, bəzi batil inanc sistemlərində öz mənasını itirdi və cəmiyyətə xeyir vermək yerinə zərər verən bir hala gəldi. Belə ki, fərqli şəkil və məqsədlərlə varlığını sürdürən və cahiliyyə toplumunun dini həyatında mühüm yeri olan qurban adəti cinayət, şirk, israf, heyvana əziyyət və ətraf mühitin kirliliyi kimi mənfi xüsusiyyətləri daşıyan hal aldı. Tarix boyu bəzi inanc sistemlərində məqsədini aşan bir hala gətirilmiş qurban bəşəriyyət tarixində fərqli səbəblərlə və müxtəlif şəkillərdə icra edildi.

Qədim yunanlarda tanrı qəbul etdikləri varlıqların qurban sayəsində yaşaya bildiklərinə, bunların sayəsində də insan və təbiə-



tin yaşadığına inanılırdı. Qədim Misirdə, şumerlərin yaşadığı Qədim Mesopotomiyada, hititlərdə, Cənubi Ərəbistanda, Qədim İranda və bir çox başqa cəmiyyətlərdə qurban adətinin olduğu ortaya çıxdı. Bütün bu cəmiyyətlərdə qurbanın mahiyyəti ifrat dərəcədə bəsitləşdirildi. Məqsəd inancları çərçivəsində ilahi olduğuna inandıqları və bütlərini düzəltdikləri varlıqları yedirmək, doyurmaq, yaşatmaq, onların şərrindən qorunmaq idi. Məsələn, qədim iranlılar tanrı qəbul etdikləri varlıqlardan Hörmüzə xeyir iş və şükran səbəbi ilə, Əhrimana isə şərdən və pisliklərdən qorunmaq üçün müxtəlif bitkilər, haoma adlı şərab və canlı qurbanlar təqdim edirdilər. Günümüzdə ibtidai qəbilələrdə tanrı olaraq qəbul etdikləri varlıqlardan yardım və qəzəblərindən qorunmaq üçün və ya günahlardan qurtulmaq üçün toyuq, inək, hətta köpək belə qurban edilir, yemək-içmək təqdim olunurdu.

Yapon dini olan sintoizmdə qurbanlar tanrı qəbul etdikləri varlıqlara və ölülərə, onları sakitləşdirmək məqsədi ilə təqdim edilirdi. İlk zamanlarda insan qurban etmək şəklində icra edilən bu təqdimatın yerini sonradan heyvan qurbanı almışdır. Günümüzdə düyü və düyü şərabından hazırlanan yemək və hətta paltar belə bu qurbanların arasına daxil olub. Eyni şəkildə, Qədim Çində də tanrı qəbul etdikləri varlıqları və ölən ataların ruhlarını razı salmaq üçün hər cür qurban təqdimatı yer almaqda idi. Bu inanc sistemində də əvvəllər insan qurbanı icra edilirdi. Sonradan Konfutsi özünün qoyduğu sosial nizam prinsipi əsasında bu qurban şəklini qadağan etdi.

Yəhudilikdə bəzi heyvanların və ya qida maddələrinin Allaha bağlılığın bir işarəsi olaraq və Onun lütfünü qazanmaq məqsədi ilə təqdim edilməsindən ibarət olan qurban ibadətinin tarixi Hz. İbrahimə dayanır. Burada qurban Hz. Musa şəriətinə görə, uyğun olan heyvanların kəsilməsi kimi qanlı qurbanlar və müxtəlif qidalar, su və şərab kimi içkilərin təqdimi şəklində qansız qurbanlar olaraq ikiyə ayrılır.

Xristianlıqda Hz. İsanı mərkəzləşdirən fərqli bir qurban anlayışı ortaya çıxdı. İlk dönəmlərdə yəhudi şəriətindəki qurban adəti davam etdiyi halda, sonradan hər bir dini məsələdə olduğu kimi, qurban məsələsində də xristianlıq yəhudilikdən ayrı bir mahiyyət qazanmağa başladı. Xristianlığa görə, Hz. İsa havariləri ilə yediyi son axşam yeməyində insanların "günah"dan qurtuluşu üçün tökülən qanından bəhs etmişdir. Xristianlar bu qanın bir çoxlarının günahının bağışlanması üçün töküldüyünü iddia edir. Allah-Təalanın Qurani-Kərimdə bildirdiyinin əksinə, xristianlar Hz. İsanın xaç üzərində özünü qurban etdiyini iddia edir. Və yenə xristianlığa görə, bu "qurban" bütün qurbanları ləğv edən əsl və tək qurbandır. Xristianlar özləri də bu qurbanda iştirak etmək üçün Hz. İsanın son axşam yeməyində bildirdiyini iddia etdikləri çörək və şərab ayinini icra edirlər. İddia etdiklərinə görə, Hz. İsa çörəyi kəsmiş, "Bu mənim ətimdir", şəraba batırmış, "Bu da mənim qanımdır, kim çörəyi şəraba batırıb yeyərsə mənim qurbanımda iştirak etmiş olar" deyib. Bunu əsas alan xristianların da qurban icrası, çörəyi şəraba batırıb yemə formasındadır.

İslam öncəsi ərəb cəmiyyətində qurban adəti hər nə qədər heyvanların qurban edilməsi şəklində icra edilsə də, uşaqların, kölə və əsirlərin bütlərə qurban edilməsi adətinin izlərinə də rastlanmaqdadır. Cahiliyyə ərəbləri müəyyən zamanlarda və ya önəmli qəbul etdikləri hadisələr vəsiləsi ilə hörmət və bağlılıq əlaməti olaraq kəsdikləri heyvanların qanlarını bütlərin üzərinə tökər, ətini isə parçalayıb bu daşdan olan bütlərin üstünə qoyar və yırtıcı heyvanların və quşların yeməsini gözləyərdilər.

İslam dini ilə birlikdə qurban bütün mənfi xüsusiyyətlərindən arınmış, Hz. İbrahim ilə Hz. İsmayılın Allaha təslimiyyətini təmsil edən maliyyə və sosial xüsusiyyətləri özündə daşıyan ibadət halına gəldi.

Sevinc ŞABANOVA



14 ƏSR
ƏVVƏL GƏLƏN HƏQİQƏT

Bir kitab düşünün. Elmin hələ 100 il əvvəl öyrəndiyi və aşkara çıxardığı bir həqiqəti 1400 il əvvəl xəbər verir. Bir insan düşünün. Elm adamlarının yaxın zamanda öyrəndiyi həqiqəti 1400 il əvvəl bildirir.

Bildiyimiz kimi, Qurani-Kərim son ilahi kitabdır və bütün insanlığa rəhbər olaraq göndərilmişdir. Buna görə də bütün insanlığa xitab edən bu müqəddəs kitabın içində yer alan hər ayə insanı düşündürür. Bəzən qorxudur, bəzən isə sevindirir. Elə ayələr də var ki, insanı heyrətə salır və Allahın qüdrətini bizə bir daha xatırladır. Qurani-Kərim içərisində yer alan bir çox möcüzəvi ayələrlə bizə həqiqəti əsrlər əvvəldən bildirmişdir. Geriyə qalan isə o həqiqətləri işıq üzünə çıxarıb onu anlamaq, həqiqəti onun dilindən öyrənmək idi. Gəlin bu həqiqətlərə birgə nəzər yetirək:

1. Kainatın Genişlənməsi

“Biz göyü əllərimizlə (qüdrətimizlə) yaratdıq və onu genişləndiririk”. (Zariyat, 47)

XX əsrin əvvəllərinə qədər elm dünyasında hakim olan tək bir baxış var idi. Bu baxış, kainatın sabit quruluşa malik olması idi. Bu zamana qədər heç bir elm adamı kainatın genişlənməsindən bəhs etməmiş, bəlkə də xəyalına belə gətirməmişdi. Rus fiziki Aleksander Friedman və Belçikalı kosmoloq Georges Lemaitre XX əsrin əvvəllərində kainatın davamlı hərəkət halında olduğunu və genişləndiyini nəzəri olaraq hesabladılar. Amerikalı astronom Edvin Hubble istifadə etdiyi böyük teleskopla göy üzünü seyrə dalarkən ulduzların və qalaktikanın davamlı bir-birindən uzaqlaşdıqlarını kəşf etdi. Ulduzlar və qalaktika sadəcə bizdən deyil, bir-birilərindən də uzaqlaşırlar. Kainatın genişləndiyi sonradan edilən bir çox araşdırma ilə də dəqiq sübuta yetirildi.

2. Dağların Vəzifəsi

“Onları silkələməsin deyə yer üzündə möhkəm dağlar yaratdıq və orada geniş yollar açdıq ki, (istədikləri yerə) rahat gedə bilsinlər”. (Ənbiya, 31)

Diqqət etsək, ayədə dağların yerüzündəki sarsıntıların qarşısını aldığı haqqında məlumat verilir. Əvvəlki zamanlarda dağların yer üzündə yerləşən böyük yüksəkliklər olduğu düşünülürdü. Daha sonra elm adamları dağların öz boylarından bəzən 10-15 qatı qədər çox yer altında uzanan köklərinin olduğunun fərqinə vardılar. Məsələn, yüksəkliyi təxmini 9 km olan Everest dağının 125 km-dən çox kökü vardır. Bu baxımdan, dağlar sanki mismarın çadırı möhkəm şəkildə yerə bağlamağına bənzəyir.

Alimlər araşdırmaları nəticəsində dağları dirəyə bənzədirlər. Qurani-Kərimdə də bu öz yerini tapıb. “Biz yer üzünü döşəmədikmi?! Dağları da dirəklər etmədikmi?!” (Nəbə, 6,7).

“O, göyləri görə biləcəyiniz dirəklər olmadan yaratdı. Sizi yırğalamasın deyə yerə uca dağlar yerləşdirdi və onun hər tərəfinə növbənöv canlılar yaydı. Biz göydən su endirib onunla orada hər növ gözəl bitkidən bitirdik”. (Loğman, 10)

3. Dəmirdəki sirr

Qurani-Kərimdə dəmir elementinə də diqqət çəkilir. Hətta Qurani-Kərimdə yer alan Hədid surəsi dəmir mənasına gəlir.

Ayədə buyurulur: “İnsanlar üçün bir çox faydası olan möhkəm dəmiri də Biz nazil etdik”. (Hədid, 25)

Ayədə dəmirin meydana gəlməsi mərhələsində istifadə olunan “ənzəlnə” kəlməsi “nazil etdik” mənasına gəlir. Bunun əksinə isə biz dəmirin yer altından çıxdığını düşünürük. Bizə görə dəmiri nazil etdik, deyil, dəmiri çıxardıq ifadəsi doğru olmalıdır. Ancaq həqiqət heç də düşündüyümüz kimi deyil. Ayədə buyurulan nazil etdik ifadəsi elmi bir həqiqəti aşkara çıxarır. Dəmirin meydana gəlməsi üçün istiliyə ehtiyac var. Ehtiyac olan bu istilik dünyada olmadığı kimi günəşdə də mövcud deyildir. Günəşin səthinin istiliyi 5500 C°, nüvəsinin istiliyi 15,6 milyon C°-dir. Bu istilik belə dəmirin meydana gəlməsi üçün kifayət deyil. Dəmir ancaq istiliyi bir neçə yüz milyon C° olan, kosmosdakı supernova adlanan ulduzlardan aldığı istiliklə meydana gəlir. Bu ulduzların istiliyi Günəşdən daha çox olur. Bu ulduzlarda olan dəmir miqdarı artdığı üçün müəyyən müddət sonra ulduzlar bu ağırlığı qəbul edə bilməyib partlayırlar. Dəmirin fəzaya yayılması da bu partlamanın nəticəsində olur. Bu səbəblə elm adamları dəmir mədəninin kosmosdan gəldiyini bildirmişlər. Sadəcə dünyadakı deyil, bütün Günəş sistemindəki dəmir kosmosdan əldə edilir. Eyni zamanda ayədə də buyurulduğu kimi, dəmirin insan üçün bir çox faydası da vardır. Dəmir olmasa atmosfer və hidrosfer, qoruyucu maqnit sahəsi, ozon qatı olmaz. İnsan qanındakı hemoqlobini meydana gətirəcək heç bir molekul olmaz. Əslində dəmirin daha çox faydası var. Amma saydığımız bir neçə maddə belə dəmirin bizim üçün necə faydalı element olduğunu anlamağımıza kifayətdir.

Bu saydıqlarımıza baxsaq, Quranın ilahi, eyni zamanda, möcüzəvi kitab olduğunu çox asanlıqla anlaya bilərik. Bu həqiqətlər Quranın sonradan peyğəmbər tərəfindən yazıldığını deyənlər üçün ən böyük cavabdır. Elmin yeni-yeni üzə çıxara bildiyi bu həqiqətləri necə ola bilər ki, 1400 il əvvəl yaşamış bir insan desin? Hələki o insanın oxumaq-yazmaq vərdişləri yoxdursa. Demək ki, həqiqət ilahi qaynaqdan gəlib.

Bildiyimiz kimi, Qurani-Kərim son ilahi kitabdır və bütün insanlığa rəhbər olaraq göndərilmişdir. Buna görə də bütün insanlığa xitab edən bu müqəddəs kitabın içində yer alan hər ayə insanı düşündürür. Bəzən qorxudur, bəzən isə sevindirir. Elə ayələr də var ki, insanı heyrətə salır və Allahın qüdrətini bizə bir daha xatırladır.

Osman Nuri TOPBAŞ

Bir görən var!

Fəridəddin Əttar həzrətləri *"İlahinamə"* adlı əsərində belə nəql edir:

"Bir gün səhər Abdullah ibn Mübarək harasa gedirdi. Qar yağmış, çox güclü külək əsirdi. Yolda bir kölə gördü. Kölənin üzərində bircə köynək vardı. Ona görə də soyuqdan titrəyirdi.

Abdullah ibn Mübarək köləyə şəfqətlə dedi:

-"Niyə əfəndinə demirsən ki, sənə paltar alsın?"

Kölə, böyük utancla:

- "Ağama nə deyim? O mənim əskiyimi də, artığımı da görür. O mənim vəziyyətimi aydın görəndən sonra mən nə deyə bilərəm? O məni məndən yaxşı tanıyır, nə istəyim ondan?" - deyə cavab verdi.

Abdullah ibn Mübarək bu sözləri eşidəndə sanki can evindən vurulmuşa döndü. Fəryad qopararaq huşunu itirdi. Özünə gələndə dedi:

- "Bizim üçün bələdçi göndərilib. Ey haqq əhli! Qanun-qaydanı bu kölədən öyrənin!"

Bir mömin, hadisədə adı çəkilən kölənin ağasına olan könül əlaqəsi ilə müqayisə olunmayacaq dərəcədə, daima ilahi müşahidə altında, yəni ilahi kameralar altında olduğunun şüuru ilə yaşamalıdır. O, bu şüuru ürəyində sabitləməlidir. Çünki Peyğəmbərimiz (s.ə.s.) bir hədisində ehsandan bəhs edərkən belə buyurur:

"Ehsan, Allahı görürmüş kimi qulluq etməkdir. Çünki sən Onu görməsən də, O səni mütləq görür". (Buxari, İman, 37; Müslim, İman, 1)



Düzgün qılınan namaz, ürəkdən verilən zəkat, sədəqə, eşqlə tutulan oruc, məhəbbətlə edilən həcc, xof ilə rəca arasında olan gözəl əxlaq və s. - hamısı ehsan halının bərəkətidir.Bundan əlavə, ehsan və təfəkkür halı günahlara qarşı möhkəm bir zireh kimidir.

Gündəlik həyatında bir cüt gözün onu gördüyünü hiss edən insan, sözlərində, hərəkətlərində və davranışlarında səhv etməmək üçün əlindən gələni edər.


Yaxşı, əgər insan hər an Allah-Təalanın ilahi müşahidəsini layiqincə dərk edə bilsə, yəni ehsan hissi içində olsa, ilahi əmrlərə qarşı bir iş görə bilərmi? Məsələn, Allahın razı qalmayacağı bir söz deyə bilərmi? Sözləri və hərəkətləri ilə qardaşının ürəyinə tikan batıra bilərmi? Harama yaxınlaşa bilərmi? Pis bir fikri düşünməyə cəsarət edə bilərmi? Əsla...

Həzrəti Ömər (r.a.) xəlifəlik etdiyi dövrdə Muazı (r.a.)

Kilaboğulları qəbiləsinə göndərmişdi. O, dövlət xəzinəsindən ödəniləcək pulları ödəməli, veriləcək malları verməli, varlılardan alınan zəkatları kasıblara paylamalı idi.

Muaz (r.a.) əvvəllər üzərinə götürdüyü bütün vəzifələr kimi, bu vəzifəni də ən gözəl şəkildə yerinə yetirdi və şirin xatirələrlə, könülləri fəth edərək geri döndü. Bir dəfə arvadı dözməyib:

"Belə bir işi öz üzərinə götürənlər müəyyən məbləğ alır və evlərinə hədiyyələr gətirirlər. Sənin hədiyyələrin haradadır? Mən onları görə bilmirəm!"– deyə soruşdu. Muaz (r.a.):



"Mənimlə birlikdə yanımdan heç ayrılmayan mürafiq (nəzarətçi, müfəttiş) vardı. Verdiyim və aldığım hər şeyi hesablayır və qeyd edirdi", - deyə cavab verdi. Daha çox sözü uzatmadı.

Xanımı hiddətlə:

- *"Allah Rəsulu (s.ə.s.) hər şeydə sənə güvənirdi. Əbu Bəkr (r.a.) də. Ömər gəldi, səninlə birlikdə nəzarətçi göndərir? Etdiyin hər şeyi izlədir?!"* - dedi.

Bu söz Həzrət Ömərin (r.a.) həyat yoldaşına, ondan isə Həzrət Ömərə çatdı. Hz. Ömər (r.a.) məsələnin əslini öyrənmək üçün Muazı (r.a.) çağırdı. Daha sonra:

- *"Mən sənin ardından belə bir nəzarətçi göndərmədiyim halda, eşitdiklərim nədir, ey Muaz? Sənə güvənmədiyimi düşünürsən?"* – deyə məzəmmətlə soruşdu.

Həzrəti Muazın cavabı isə çox mənalı idi:

"Ey Möminlərin Əmiri! Həyat yoldaşımdan üzr istəmək üçün ancaq bunu tapa bildim. Bundan başqa, mənim mürafiq dediyim sənin mürafiqin deyil, Allahın mürafiqi idi. Bu səbəbdən də, icazəli olsa belə, nəfsim üçün heç bir şey ala bilmərəm ki, xidmətimin mükafatı hədər getməsin..."

Həzrət Ömər (r.a.) onun bu sözlərlə nə demək istədiyini anladı. Çünki Muaz (r.a.) nəfsinə və dünyaya aid olan hər şeydən uzaq idi. Xəlifə onu təltif edərək hədiyyə verdi və dedi:

- "Get bununla ailənin könlünü al!"

Bütün yaradılış zaman və məkanla qeydə alınıb. Rəbbimiz zaman və məkandan kənardır. Yəni hər an, bütün məxluqatının yanındadır.

Ayədə buyurulur:

"...Siz harada olsanız, O sizinlədir..."

(əl-Hədid, 4)

Aşağıdakı hadisə bu həqiqəti çox qısa şəkildə izah edir:

Bir vaiz minbərdə axirətdən danışırdı. Hz. Şeyx Şibli də camaat arasında idi. Vaiz Allah-Təalanın axirətdə verəcəyi suallardan danışır:


- *"Biliyini harada istifadə etdin, soruşulacaq! Malını hara xərcləmisən, soruşulacaq! Ömrünü necə keçirdin, soruşulacaq! İbadətlərin nə vəziyyətdədir, soruşulacaq! Haram-halala diqqət etdinmi, soruşulacaq! Bunlar soruşulacaq, onlar soruşulacaq!.."* - deyə bir çox məsələləri uzun-uzadı sadaladı ki, hamısı da bir-birindən vacib idi.

Şibli həzrətləri bütün təfərrüatlara baxmayaraq, məsələnin mahiyyətinə diqqət çəkilmədiyini bildirərək lütfkarlıqla vaizə müraciət etdi:

- *"Vaiz əfəndi! Sualların ən vacibini unutmusunuz! Allah qısaca bunu soruşacaq: "Ey bəndəm! Mən hər zaman səninlə idim, bəs sən kiminlə idin?"*

Allahın hər an və hər yerdə bizimlə olması, insanı bir tərəfdən ürpədirsə, digər tərəfdən də hüzura qovuşdurur. İnsanı ürpərdir, çünki Allah qorxusunu reallaşdırır. Digər tərəfdən, insana Allah-Təalaya yaxın olmağın ləzzətini daddırdığı üçün qəlbə müstəsna bir rahatlıq verir.

Rəbbimiz digər bir ayədə qulları ilə daim bərabər olduğunu belə bəyan edir:



“(Ya Peyğəmbər!) Məgər görmürsənmi ki, Allah göylərdə və yerdə nə varsa, (hamısını) bilir. Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Odur. Onlar bundan az da, çox da olsalar və harada olsalar, (Allah) yenə də onların yanındadır. Sonra qiyamət günü (Allah) onlara etdikləri əməlləri (bir-bir) xəbər verəcəkdir. Allah hər şeyi biləndir!” (əl-Mucadilə, 7)

“(Ya Peyğəmbər!) Məgər görmürsənmi ki, Allah göylərdə və yerdə nə varsa, (hamısını) bilir. Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Odur. Onlar bundan az da, çox da olsalar və harada olsalar, (Allah) yenə də onların yanındadır. Sonra qiyamət günü (Allah) onlara etdikləri əməlləri (bir-bir) xəbər verəcəkdir. Allah hər şeyi biləndir!” (əl-Mucadilə, 7)

Ona görə də ən böyük mübtəlalıq bu həqiqətdən qafil olmaqdır.

Rəvayətə görə, İsa (ə.s.) dərisində xallar olan şəxslə qarşılaşır. Həmin adam:

- *“Allahım! Sənə sonsuz həmd olsun ki, çoxlarını mübtəla qıldığın bəladan məni xilas etdin”.*

İsa (ə.s.) həmsöhbətinin anlayışını və kamilliyini yoxlamaq üçün ona dedi:

“-Ey insan! Allahın səni xilas etdiyi hansı dərddir?”

Xəstə cavab verdi:

“Ey Ruhullah! Ən dəhşətli xəstəlik və bəla qəlbin qəflət və Haqdan məhrum olmasıdır. Şükürlər olsun ki, Allah-Təala ilə bir yerdə olmağın sevincində, ləzzətində və zənginliyindəyəm. Sanki bədənimdəki xəstəliklərdən xəbərim belə yoxdur...”

İbadətdən həzz, ləzzət almaq və ondan yorulmamaq ancaq ehsan hissi ilə mümkündür. Qəlbində ehsan hissi olmayan insan namaz qılarsa yorular, namaz ona ağır gələr. Zəngindirsə, zəkat və sədəqə verməkdən, imkanını yoxsullara sərf etməkdən çəkinər.

Çünki ilahi nəzarətdən uzaq olduğu üçün iman ləzzətini ala bilmir. Bu baxımdan demək olar ki, düzgün qılınan namaz, ürəkdən verilən zəkat və sədəqə, eşqlə tutulan oruc, məhəbbətlə edilən həcc, qorxu ilə ümid arasında olan gözəl əxlaq və s. - hamısı ehsan halının bərəkətidir.

Bundan əlavə, ehsan və təfəkkür halı günahlara qarşı möhkəm bir zireh kimidir. Çünki insan özünü ilahi hüzurda bildiyi za-man və qəlbi: “Ya Rəbbi!” – deyərək Allah ilə bərabər olarkən günah edə bilərmi?

Belə ki, Yusifi (ə.s.) gözəllik, şöhrət, sərvət sahibi bir qadının *“Mənə gəl!”* - deyərək dəvət etdiyi çirkin tələdən və fitnədən xilas edən, qəlbinin daimi təfəkkür halı və könlündəki ehsan hissi olmuşdur. Yəni o, təfəkkür və ehsan halı ilə böyük təhlükənin öhdəsindən gələ bilmişdir.

Bundan başqa, südə su qatmasını deyən anasından qızı soruşur:

“Ana, məgər xəlifə südə su qarışdırmağı qadağan etməmişdi?”

Anası da:

“-Qızım, xəlifə gecənin bu saatında südə su qatmağımızı haradan biləcək?” - deyə qarşılıq verir. Qızı isə:

- "Ana! Tutaq ki, xəlifə görmür, Allah da görmür? Bu hiyləni insanlardan gizlətmək asandır, amma hər şeyi görən və bilən Allahdan gizlətmək olarmı?" – deyərək cavab verən südçü qız da bu halın müstəsna nümunələrindən biridir.

Əgər insan Allah-Təalanın ona şah damarından daha yaxın olduğunu dərk etsəydi, təqva içində yaşamağa çalışar, hesaba çəkilmək qorxusundan daim ayıq-sayıq olar, hətta bu ilahi həqiqət onu qorumağa kifayət edərdi.

Haqq dostlarından biri qonaq edəcəyi gözdən qüsurlu biri üçün çox təmtəraqlı süfrə hazırlayır. Ətrafındakılar:

- "Əfəndim, gələcək qonağınızın gözləri görmür. Niyə bu qədər etina göstərib zəhmət çəkirsiniz? O sizin zərif süfrənizi görə bilməz ki!"- deyirlər.

Həmin müdrik insan bu möhtəşəm cavabı verir:

"Bəli, mənim hazırladığım təamları o görə bilməz, amma onun Rəbbi görər!"

Bütün məsələ budur:

- Allah-Təalanın ilahi nəzarəti altında olduğumuzu bilərək yaşaya bilmək,

- Bəndələrdən heç kimin görmədiyi yerlərdə belə doğru yolda olmaq,

- İnsanın nəzərindən uzaq yerlərdə belə günahlardan çəkinə bilmək və:

- "Allah məni hər zaman və hər yerdə görür, eşidir, hətta ürəyimdəkiləri də bilir!" şüuru içərisində yaşamaqdır.

Bu halın zirvəsini Peyğəmbərimizin (s.ə.s.) həyatında görürük. Çünki Peyğəmbərimiz həyatının hər anını ehsan duyğusu içində yaşamışdır. Bizim üzərimizə düşən, Allahın bizim üzərimizdəki müşahidəsini dərk etdikdən sonra halımızı ehsan halının ən möhtəşəm abidəsi olan Rəsulullahın yüksək halı ilə müqayisə edib onun istiqamətində hərəkət etməyə çalışmaqdır. Düşünməliyik ki:

Onun səbri, alicənablığı, sədaqəti necə idi, bizimki necədir? Onun namazı, orucu, həcci, zəkatı, kəlimeyi-şəhadəti necə idi, bizimki necədir? Onun yeyib-içməsi necədir, bizimki necədir? Onun Haqq yolunda xidməti və əzmi, ədalət və mərhəməti necədir, bizimki necədir?

Rəbbimiz buyurur:

"...Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır!" (əl-Əraf, 56)

Uca Rəbbimiz bizə ehsan duyğusu və ilahi təfəkkür mühitində qulluq həyatı yaşamağı nəsib etsin. Amin!



"...Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır!" (əl-Əraf, 56)

Aysel VAHABOVA

Həsrət yanğını

Dünya həyatı fasiləsiz yaşanan bir yolçuluqdur. Bu yolçuluq doğumdan sonrakı ilk addım ilə başlayar və son nəfəsə qədər davam edər. Balaca uşaqdan soruşsaq ən çox istədiyin şey nədir? Gəzmək deyər. Gəzəndən soruşsaq qaçmaq deyər. Ancaq heç kimsə bilməz ki yol sadəcə gəzməkdən və yaxud qaçmaqdan ibarət deyil. Yol əslində tərbiyə deməkdir. Yol insanı tərbiyə edər. Yol insanı insan edər. Bu yolçuluqların başında Allah-Təalaya aparan yolçuluq gəlir. Bəs bir insan Allah-Təalaya necə yolçuluq edə bilər? İlk öncə qul namazla, səcdələrlə yüksələr Rəbbinə. Daha sonra Allahın əmrlərini yerinə yetirərək, ibadətləri əmr edildiyi kimi əməl edərək...

"İslam beş əsas üzərində qurulmuşdur:

Allahdan başqa ilah olmadığına və Muhammədin (s.ə.s.) Onun qulu və elçisi olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Kəbəni həcc etmək, Ramazan orucunu tutmaq". (Müslüm, İman, 21)


Hədisi-şərifdə bildirildiyi kimi Allah-Təlanın əmr etdiyi ibadətlərdən biri də ziyarət imkanı olanlara müqəddəs evini (Kəbəni) ziyarət etməkdir.

İnsan dünyaya gələrkən həsrət acısı çəkərək gələr. Ruhu yaradıldığı yer üçün darıxar, ona görə dünyaya gələrkən ağlayarmış. O həsrət duyğusu Allahın evini, Kəbəni görüncə azalarmış. Ona görə Kəbəni bir dəfə ziyarət edənlər hər zaman ora getməyin arzusunu çəkərlər. Gedib görə bilməyənlərin həsrəti isə daha dərin və tərif olunmazdır...

Həcc mövsümündə Kəbə yolçularına Rəblərindən "buyur" dəvəti gəlmiş və tərifsiz bir vüslat həyəcanı başlamışdır. Allah-Təala o qullarını ikram etmək üçün seçmişdi. Anadan doğulmuş kimi günahlardan təmizlənməyə, bir rükət namaza, təvafa və Kəbəni seyr etməyə belə milyonlarla mükafat veriləcək bir bəldəyə səfər vardı. Ürəklər həyacanlı, kəlimələrin kifayətsiz qaldığı vaxtdı...

Kəbə yolçularına həyatda dadılacaq ən gözəl müsafirlik və ən müqəddəs yolçuluq üçün gəlmişdi dəvət. Bəs geridə qalanlar?

Onlar hüzün mövsümünü yaşıyırdılar.Saralmış yarpaqların budaqlardan tək-tək düşməsi kimi damla-damla göz yaşları tökülürdü. Rəhmət və məğfirət dayanacağı mübarək bəldələrə qovuşmağın, vəhy qoxan iqlimləri tənəffüs edə bilməməyin hüznünü yaşayırdılar. Boynu bükük, yetim uşaq kimi gözyaşları içində Allaha dua edirəm.



“İslam beş əsas üzərində qurulmuşdur: Allahdan başqa ilah olmadığına və Muhammədin (s.ə.s.) Onun qulu və elçisi olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Kəbəni həcc etmək, Ramazan orucunu tutmaq”.

(Müslüm, İman, 21)

“Ey Rəbbimiz! Şahidsən ki, yer üzündəki ən müqəddəs yer olan Evinə (Kəbəyə) həsrətimiz tərif edə bilməyəcəyimiz qədər çoxdur. Bu həsrəti dilə gətirməyə nə cümlələrimiz, nə də kəlimələrimiz yetər. Həsrət bir atəş kimi yandırıb yaxır ürəyimizi.

Ey Rəbbimiz! Bu görən gözlərimiz qapanmadan, bu tutan əllərimiz, ayaqlarımız taqətdən düşmədən, ruhumuz bədəndən ayrılmadan çağırsan bu mübarək bəldəyə. Biz də İbrahim (ə.s.) kimi qumlarda yansaq, İsmail (ə.s.) kimi qurbanın olsaq, Həcər (r.anhə) kimi əmrinə təslim olsaq… Sənə müsafir deyil, Sənin qulun olsaq! Kəbənin eşiyinə alarsanmı, dəvət edərsənmi bizi. Bu kirlənmiş könlümüzü zəmzəmlə yuyub arındırsaq günahlardan...

Taqətdən düşənə qədər pərvanən olub Kəbəndə dönsək. Hacərül-Əsvədi öpüb daş olan könlümüzü əritsək. Altınoluğun altında rəhmətinlə islanıb səcdələrlə yüksəlsək…

Həcər anamızın qaçdığı kimi qaçsaq məğfirət müjdəsini eşidənə qədər. Qəbul edərsənmi bizi?

Peyğəmbərimizin (s.ə.s.) qızı Hz. Fatimənin əxlaqına, Hz. Xədicənin sədaqətinə, Hz. Ayişənin elmini öyrənsək də saliha bir xanım olaraq onlara bənzəsək.”

Bu duaları edərkən könlümüz gedər o diyarlara. Həsrət göz yaşlarıyla islanar səccadələrimiz. Nə xoşbəxtdir dəvət əmri gələnlər...

Rəsulullah (s.ə.s.) belə buyurur:

“Hacılar və ümrə edənlər, Allaha gedən yolçulardır. Allah onları çağırar, onlar da gələr. Onlar Allahdan istəyərlər, Allah da onlara verər”. (İbn Macə)

“(Ey Kəbə!) Sən nə gözəlsən, qoxun nə gözəldir! Sən nə ucasan və hörmətin də ucadır! Amma canım əlində olan Allaha and içirəm ki, Allah qatında malıyla, qanıyla və haqqında hüsni zənn edən möminin hörməti, sənin hörmətindən daha böyükdür!” (İbn Macə)

Kimiləri Kəbəni, tək bir dəfə görmək üçün necə zəhmətlər çəkib fədakarlıqlar göstərirlər. Kimiləri isə bir daha geri dönməyəcəkmiş kimi mallarını mülklərini satıb, məqam-mövqe buraxıb qatar-qatar, karvan-karvan düşürlər Kəbə yollarına.

Dəvələr qatar-qatarlar
Qum dəryasına batarlar
Şeytanı daşa tutarlar.
Nə gözəl Məkkə illəri
Uzaqdır Kəbə yolları.

“Ey Kəbə, sən bizim əbədi rəhbərimiz, əziz öndərimizsən. Qəlblərimizin məhbubu, könüllərimizin sultanısan. Çünki sən, Beytullahsan”.

Bu eşq ilə əvvəlcə Adəm olmuş, sonra Habil, öncə İbrahim olmuş, sonra İsmayıl…

Siddiq olmuş, Faruk olmuş,
Əli olmuş, Osman olmuş,
Əbu Zər olmuş, Üveys olmuş,
Yusif olmuş, Yunus olmuş...

Cəm olmuş, sultan olmuş və sonunda hamısı da Canana qurban olmuşlar…

Qeyd: Yazıda “yolçu-səfər edən; yolçuluq-səfər” mənasında işlənib.

PSİXOLOQ MƏSLƏHƏTİ
Şəbnəm ƏNDƏLİFOVA
shabnam.ailyeva95@gmail.com

"Uşağı olan onunla uşaqlaşsın"

"Uşağı olan onunla uşaqlaşsın" hədi-si-şərifində bir çox incəliklər mövcud-dur. Ana və atanı həm oyuna təşviq edir, həm də necə oynamağın yollarını öyrədir. Valideyn uşaqla oyun oynaya bilmək üçün da-xilində olan uşaqlıq hissini ortaya çıxarmalıdır. Bu zaman uşaqla aramızda olan yaş, dünya-görüşü və fikirlərimizdə olan fərqliliyi aradan qaldırırıq.

Valideyn uşaqla oynayarkən uşağı idarə etməyə çalışmamalıdır. Rəhbərliyi uşağın öh-dəsinə buraxmaq çox daha faydalı olacaqdır. Oyunun idarəsinin uşağa verilməsi uşaqda özünə inamın inkişafına dəstək olur. Uşaq özünü sərbəst hiss edir və özünü ifadə etmək imkanı qazanır. Rolları dəyişdirərək valideyn roluna girəndə ona necə davranıldığı barədə ipucu verir. (Daxili dünyası haqqında mühüm ipucları verə bilər) Uşaqda liderlik bacarığı ink-işaf edir.

Valideynlər uşaqla oynayarkən özləri də əylənməyi bacarmalıdır. Uşaqlar bunu hiss edirlər. Əgər valideyn oyundan həzz almazsa, oyun vəzifə kimi qəbul edilərsə, uşaq həvəsini itirər. Saatlarla oyun oynamaqdansa həm valid-eynin, həm də uşağın əylənəcəyi şəkildə yarım



saat oynamaq daha faydalıdır. Beləliklə, oyunun keyfiyyəti müddətdən daha vacibdir. Keyfiyyət vaxt keçirən hər kəsin məmnunluğu ilə müəyyən edilir. Belə olanda valideyn övladı ilə oynamağa can atır. Ona görə də təkcə özümüzü və ya uşağı sevindirmək üçün vaxt keçirmək sağlam deyil. O vaxtı keçirən hər kəsin razı qalması üçün səy göstərməsi daha sağlam olar. Oynadığınız oyunları özünüz və uşağınız üçün mənalı və əyləncəli etməyin yollarını axtarmalısınız. Bunun yolu da insandan insana dəyişir. Hər kəsin maraqları və zövqləri fərqlidir. Siz və uşağınız üçün ən uyğun fəaliyyəti seçmək çox yaxşı bir qərar olacaq.

Uşağımızın hər problemini həll etmək ona kömək etmək demək deyil. Əksinə, hətta ona zərər verə bilər. Problemlərinin həllində tamamilə valideynlərindən asılı olan uşaq elə bir vəziyyətə düşə bilər ki, heç bir problemi özü həll edə bilməz və daim kimdənsə kömək istəyər. Bunun baş verməməsi üçün uşağın problemlərinə kömək etmək əvəzinə, ona istiqamət və motivasiya vermək kifayətdir.

Oyun oynamaq uşağınıza problem həll etmə, qərar vermə, yaradıcı olma, özünə inam qazanma, risk alma, empatiya qurma və paylaşma haqqında bilməli olduğu nüansları öyrədir. Övladınızın oyun oynamaqdan zövq almağını təmin etmək üçün bəzi məqamlara diqqət yetirək:

* Uşaqla oynayarkən bütün diqqətinizi uşağınıza verin, yerə oturub istədiklərini edin. Oyun əlaqələrini möhkəmləndirin.

* Oyundan zövq alın.

* Birlikdə əylənin. Oyunlara yumor qatmaq uşağınızın xoşuna gələcək.

* Uşağınız sevincli şəkildə oyun oynayırsa müdaxilə etməyin. Sizə ehtiyac duyana, oyuna qatılmanızı istəyənə qədər ona müdaxilə etməyin, təkliflərinizi verməyin.

* Oyuncaqları səliqəli şəkildə yerinə yığmaq çox əyləncəli ola bilər. Məsuliyyətlərini oyun zamanı aşılayın.

* Yığışdırmağı da, dağıtmağı da əyləncəyə çevirin.

* Uşağınız üçün oyuncaqları yerinə qoymaq boşaltmaq qədər əyləncəlidir.

* Oyuncaqları ara-sıra gizlədin, müəyyən vaxt keçdikdən sonra çıxarın. Yenidən ortaya çıxdığında uşağınız onunla daha çox maraqlanacaq.

* Oyun xəmiri, gil, boya, sənət vəsaitləri kimi bir neçə yaradıcı oyun növü fikirləşin.

* Özünüzü elektron "öyrədici" oyuncaqlar almaq məcburiyyətində hiss etməyin. Birlikdə əylənəcəyiniz oyun vəsaitlərini özünüz hazırlayın.

Bu gün gərgin iş tempi və televizor, kompüter, planşet, telefon kimi cihazlar səbəbilə valideynlər uşaqları ilə keçirə biləcəkləri keyfiyyətli oyun vaxtını itirirlər. Ancaq uşağın gələcəkdə xatırlaya biləcəyi ən gözəl xatirələr valideynləri ilə keçirdiyi xoş anlar olacaq və bu xatirələr gələcəkdə öz uşaqları ilə oynamağa kömək edəcək.

Uşağımızın hər problemini həll etmək ona kömək etmək demək deyil. Əksinə, hətta ona zərər verə bilər. Problemlərinin həllində tamamilə valideynlərindən asılı olan uşaq elə bir vəziyyətə düşər ki, heç bir problemi özü həll edə bilməz və daim kimdənsə kömək istəyər. Uşağın problemlərinə kömək etmək əvəzinə, ona istiqamət və motivasiya vermək kifayətdir.

Prof.dr. Nəcdət TOSUN

Muhammməd Əsad Ərbili (q.s.)

Muhammməd Əsad Ərbili həzrətləri hicri 1264 (m. 1847) - cü ildə o vaxtlar Osmanlı torpağı olan və bu gün İraqın şimalında qalan Ərbil şəhərində dünyaya gəlib. Babası Mövlana Xalidi Bağdadinin xəlifələrindən Şeyx Hidayətullah Ərbili, atası da Şeyx Muhammməd Səiddir. Gəncliyini mədrəsələrdə dini təhsilini alan Əsad əfəndi iyirmi üç yaşına gəldiyində 1287 (1870) - ci ildə təsəvvüf yoluna başladı. Babası və atasının irşad dövrünə çatmadığı üçün Taha Hariri həzrətlərinə mürid olur. Beş il şeyxinin xidmətində olduqda onun yanında təsəvvüfi təhsilini bitirdi və Nəqşibəndiyyə yoluna icazə aldı. Şeyxi Taha Haririnin vəfatından sonra Ərbildə irşada başladı. On il sonra 1303 (1885) - cü ildə o bölgədəki Duhokun Etruş kəndində yaşayan Abdulhəmid Birifkanidən Qadiriyyə təriqəti icazəsi aldı.



Əsad Ərbili həzrətləri həcc vəzifəsi əsnasında gördüyü bir yuxuya görə İstanbula köçməyi qərara alır. İstanbula ilk gəldiyində hələ tanınmadığı üçün heç kimdən maraq görmür. İlk vaxtlarda Fateh məscidində Hafiz divanı və Molla məscidinin Lüccətül-əsrarını oxudaraq irfan məclisləri qurdu. Qısa zamanda tanındı və padşahın kürəkəni Xalid Paşanın dəvəti ilə sarayda ərəbcə və dini elmlər dərsi verməyə başladı. Sultan II Abdulhəmid onun elmi və irfan dərslərini eşidincə Məclisi-Məşayih azalığına təyin etdi. Sonra dərgahı boş qaldıqda burda irşad ilə görəvləndirildi. Muhammad Əsad Ərbili Kəlamı-Dərgahında cümə günləri zikir və söhbət məclisləri qurardı. Sonra Nəqşibəndi üsulu ilə Xətmi-Xacə etdirərdi. İrşad fəaliyyəti ilə məşğul olduğuna görə 1896-cı ildə ona maaş verməyə başlandı. Əvvəllər təsəvvüfə müxalif olan bir çox alim Muhammad Əsad Ərbiliyə mürid oldu.

Muhammad Əsad Ərbili 1318 (1900) - ci ildə İstanbuldan ayrılıb məmləkəti Ərbilə getdi. Bəzi qaynaqlara görə Əsad əfəndi qələmə aldığı 1001 hədisi-şərif və qısa açıqlamalarını əhatə edən Kenzül-İrfan adlı əsərindəki "Səyahət edin ki, səhhətli olasınız",- hədisinin açıqlamasını bəzi insanlar tərəfindən tərif edərək Sultan Abdulhəmidə şikayət edilib. "Gənclərə Osmanlı idarəsindən Avropaya qaçın",- demək istədiyi şəkildə bildirərək Əsad əfəndini Abdulhəmid tərəfindən Ərbilə sürgün edilmişdir. Əslində həmin bölgədə petrol tapılması, ingilislərin oranı Osmanlıdan qoparmaq istədiklərini bildiyi üçün Sultan Abdulhəmid Muhammad Əsad Ərbili həzrətlərini oradakı insanları məlumatlandırmaq üçün Ərbilə göndərmişdir. Əsad Ərbili həzrətləri oğlu Mehmed Əli əfəndi ilə birlikdə Türk Muhibləri cəmiyyətini qurmuş və burada özünə verilən şəxsi vəzifəni yerinə yetirmişdir.

Əsad əfəndi yeddi il sonra 1324 (1907) - cü ildə II müstəqillik elan edildikdən sonra İstanbula qayıdır. Sultan Mehmed Rəşad dövründə Məclisi-Məşayıhın başına gətirildi. Burada bir il işlədikdən sonra 1915-ci ildə istefa edərək irşadla məşğul olub mürid yetişdirdi.

Cumhuriyyət elan olunduqdan sonra 1925-ci ildə dini müəssisələr və təkkələr bağlanır. 23 dekabr Mənəmən (İzmir şəhərində bir bölgə) hadisəsi ilə əlaqəsi olduğu iddia edilərək oğlu Mehmed Əli əfəndi ilə birlikdə Mənəmənə aparılan Əsad Ərbili burada mühakimə edilərək edama məhkum edildi. Oğlu Mehmed Əli edam edilərkən Əsad Ərbilinin yaşlılığı səbəbilə ömürlük həbsə çevrildi. Daha sonra müalicə aldığı xəstəxanada 84 yaşında 1931-ci martın 3-dən 4-nə keçən gecə vəfat etdi. Cənazəsi rəsmi müəssisələr tərəfindən gizlicə Mənəməndə dəfn edildi. Bəziləri Əsad əfəndinin xəstəxanada zəhərlənərək öldürüldüyünü iddia etmişdilər. İzmir şəhərinin Mənəmən bölgəsində məzarının oluğu yerə sonralar Safa məscidi inşa edirlər.

Əsad Ərbilinin yazdığı əsərlər bunlardır: "Kenzül-İrfan, Məktubat, Risaləyi-Əsadiyyə, Tövhid Risaləsi tərcüməsi, Fatihəyi-Şərifə tərcüməsi, Divan".

Əsad əfəndinin irşad vəzifəsini mürid və xəlifəsi Mahmud Sami Ramazanoğlu davam etdirmişdir.

Divanındakı Peyğəmbər sevgisi adlı şeirindən biri belədir:

Tecellayı cemalinden habibim nevbahar ateş!

Ül ateş, bülbül ateş, sümbül ateş, hakü har ateş"!

Fatimə YUSİFOVA

İSLAMDA ADLAR



Bizdən sonra dünyada qalan həyatdakı əməllərimizin güzgüsü olan adımızdır və heç nəyə görə yox, məhz adımıza görə bizi yad edəcəklər. İnsanın adının taleyinə sirayət etməsi inancı qədim Misir və Hind mədəniyyətindən qaynaqlanır. İçində Peyğəmbərlərdən birinin adını daşıyan adam olduğu evə mələklər vasitəsilə hər gün iki dəfə xeyir-bərəkət gələr.

Yeni doğulan uşağa və ya sonradan müsəlman olan kimsəyə ad qoymaq:

Varlıqları bildirmək və ya şəxsləri digərlərindən ayırmaq üçün istifadə edilən kəlmələrə ad deyilir. Allah Təala yer üzündə yaratdığı ilk insan və ilk Peyğəmbər olan Adəm (a.s.)-a hər şeyin adını və faydasını bildirdiyini Qurani Kərimdə xəbər verdi.

Tarixin hər dövründə insanlar inanc və adətlərinə görə ad qoyurdular. Türklərin islamiyyəti qəbulundan öncəki adları uşaqlıq və gənclik dönəmlərində olmaq üzərə iki dönəmdə verilirdi. Uşaqlara adlar ən yaşlılar tərəfindən qoyulardı. Əsas ad gənclik çağında göstərilən qəhrəmanlıqdan sonra qoyulurdu.

Ad qoymaq uşağın atası üzərindəki haqqıdır. Əgər atası vəfat etmişsə bu haqqı ana istifadə edə bilər. Peyğəmbərimizə "Məhəmməd" adını babası Abdülmüttəlib qoymuşdu. Uşağa ad qoyma mərasimində uşağın atası, babası və ya ən yaşlı, elmi ən çox olan uşağı qucağına alır, dəstəmazlı olaraq qibləyə dönür və ayaq üstə sağ qulağına azan, sol qulağına iqamə oxuyur. Üç dəfə qulaqlarına qoyduqları adı söyləyir və beləcə ad qoyulmuş olur.

Ad seçmə xüsusunda İslam alimləri bəzi hökmlər qoymuşdur. Həm söylənişi, həm də mənası gözəl olan ad qoymaq müstəhabdır. Uşağa qoyulacaq adların ən dəyərliləri olaraq Abdullah, Abdurrahman, Əhməd, Məhəmməd, İbrahim adları bildirilmişdir. Bunlar Allah Təalanın sevdiklərini xatırladan adlardır. Peyğəmbərimiz (s.ə.s.) buyurmuşdur ki:

"Qiyamət günündə atalarınızın adları ilə çağırılacaqsınız. Bu baxımdan

uşaqlarınıza gözəl adlar qoymağınız məsləhətdir" (Əbu Davud, 61).

Ad sahiblərinə şəfaət:

Hər peyğəmbər öz adından olanlara, hər alim və övliya da öz adından olanlara şəfaət edəcəkdir. Gözəl adın bu yöndən əhəmiyyəti vardır. Hədisi-şərifdə buyurulur ki: Allah qatında ən gözəl olan ad Abdullah və Abdurrahmandır.

Bəzən elə olur ki, adları qısaldırıq və belə olduqda onların mənasını pozur və anlamsız adlarla bir-birimizə səslənirik. Məsələn: Abdullaha Abo, İbrahimə İbo, Zeynəbə Zeyno və s.

Adın tale ilə bağlılığı:

Bizdən sonra dünyada qalan həyatdakı əməllərimizin güzgüsü olan adımızdır və heç nəyə görə yox, məhz adımıza görə bizi yad edəcəklər. İnsanın adının taleyinə sirayət etməsi inancı qədim Misir və Hind mədəniyyətindən qaynaqlanır. Maraqlı burasıdır ki, Hindistanda hələ də bu ənənəyə inanırlar.

Dünyada ən uzun adlar:

Dünyada ən uzun ad 1478 hərfdən ibarətdir. Onu oxumaq üçün ondan az olmayan dəqiqə tələb olunur. Məşhur rəssam Pablo Pikassonu hamı tanıyır. Amma heç də hamı onun adının və soyadının bütöv dəstini bilmir. Onun adı belədir: De Fransisko Pablo Dieqo Xozesi Nepomukena Krispin Krispiano De La Santis İmanın Paula Xuani Trinidad Ruiz Pikasso. Onun adında tam 103 hərf var.

Nənə, baba adını uşağa qoymaq düzgündürmü?

Bizim cəmiyyətdə qəribə bir adət var. Yeni doğulan körpəyə, adətən valideynin yaşayan yaxud da rəhmətə gedən ana-atasının adı verilir. Dünyasını dəyişmiş nənə və babanın adının uşağa verilməsinin həm müsbət, həm də mənfi cəhətləri var. Burada həmin şəxsin həyatda necə insan olmasının, yaddaşlarda necə qalmasının böyük əhəmiyyəti var.

Uşağa ad seçərkən son sözü valideynlər deməklə bütün məsuliyyəti özlərinə götürməlidirlər. Çünki bir sıra ailələrdə adqoyma prosesinə az qala bütün nəsil müdaxilə edir. Çikaqo alimlərinin apardığı tətqiqatlar göstərir ki, qəribə və qeyri-adi adı olan insanlar ona lağ edilməməsi və normal münasibət üçün həmişə mübarizə aparır və bu ona pis təsir edir.

Qədimdə doğulan uşaqlara müqəddəs insanların, tarixi şəxsiyyətlərin, Peyğəmbərlərin adını qoymaq çox dəbdə idi. Şərq ölkələrində Quranda qeyd olunan adlardan istifadə etmək ənənəsi indi də var.

Çox vaxt uşaq anadan olmamışdan yaxınlarından kimsə uşağa ad seçir. Qohumun sözünü yerə salmaq istəməyən valideynlər əksər hallarda bu seçimlə razılaşırlar. Amma bu ad sizin ürəyinizcə deyilsə, buna etiraz etmək lazımdır. Sonra bu adla uşağı çağırmaq sizə xoş olmayacaq. Südəmər körpə valideyinin məhəbbətini onun səsindən və emosiyasından hiss edir. Əgər siz onun adını çətinliklə, məcburən dilinizə gətirirsinizsə və bu an heç bir xoş hiss keçirmirsinizsə uşaq bunu hiss edəcək.

Adın uzun və ya qısa olması, soyada yaraşıb yaraşmaması da vacibdir. Uzun və köhnə adlardan uşaqlar ən çox məktəb illərində əziyyət çəkirlər.

İçində Peyğəmbərlərdən birinin adını daşıyan adam olduğu evə mələklər vasitəsilə hər gün iki dəfə xeyir-bərəkət gələr.

Qız uşaqlarının adına gəlincə, hədislərdən, islam müqəddəslərinin həyat tərzindən məlum olur ki, ən çox bəyənilən və tövsiyyə edilən adlar bunlardır: Xədicə, Fatimə, Zeynəb, Ümmü Gülsüm, Məryəm, Zəhra, Səkinə və s.

Səhər AYDIN



CƏMİYYƏTİN MEMARLARINI TANIYIRMISINIZ?

Sağlam bir cəmiyyət, yetişmiş ailələrdən; yetişmiş ailələr ağıllı və uzaqgörən valideynlərdən ibarətdir. Ailələr, tarixdəki toplumların ömürlərini və güclərini müəyyənləşdirən özül daşlarıdır. Böyük təşkilat olan ailələri isə qabiliyyət və xüsusiyyətləri bir-birindən çox fərqli olan qadın və kişi təmsil edir.

Kişi, evini qoruyan "gücü" olarkən, qadın yuvanın zinəti olaraq boşluğu doldurur. Bir-birilərini tamamlamaları ilə Allah Təala, onlara yaradılmışların ən şərəflisi olan insanı, övladı əmanət edir.

Nəsillər boyu davam edəcək ailələri qoruyan qadın və kişi, göydələnləri saxlayan sütünlar qədər vacibdir. Belə ki, insanlıq, xarakter və əxlaqın önəmli hissəsi, yaradılışda var olan, nəsildən, soydan gəlir.

Bununla yanaşı uşaqların əxlaq və xarakterinin üçdə ikisi 0-6 yaş arasında, ana-atanı görərək, təqlid edilməsi ilə formalaşır. Yəhya ibn Muaz (r.a.)ın buyurduğu kimi: "Uşaqlar yeni hazırlanmış qəlib kimi ana-atalarının söz və davranışlarını, hafizələrinə, həmişəlik həkk edirlər" və həyatları boyunca bu davranışı fərqində olmadan təqlid edirlər.

Ailədə fərdlər, bir-biriləri ilə müqayisə olunmayacaq dərəcədə əhəmiyyətlidir. Kişilərin güc, qüvvət və şücaət simvolu olaraq gördüyümüz ailələrdə, yuvanın memarı zəif və gücsüz olan dişi quşa həvalə edilərək: "Yuvanı dişi quş qurar" deyilmişdir.

Bu söz qadını ürəkləndirməklə yanaşı, ailə və cəmiyyətdəki yerinin ülviliyini göstərən önəmli bir məqamdır. Bu gün yuvanı quran dişi quş, sabah cəmiyyəti, ertəsi gün isə dövləti quracaqdır. Yəni, insanın, cəmiyyətin və dövlətin gerçək memarı, görünməz qəhrəmanı "ana"dır. Cəmiyyətin və dövlətin memarı olan qadın, bir ana-atanın övladı, bir kişinin xanımı, uşaqların anası olmaqla yanaşı,

Müsəlman xanım həya sahibidir. Müsəlman xanım iffətli və qürurludur. Müsəlman xanım səbirlidir, ətrafını sevindirər. Mərhəmət sahibidir, insanlara faydalı olar. Müsəlman xanım ona aid olmayan işlərə qarışmaz, onlarla vaxtını itirməz. Çünki bilir ki, cəmiyyətin nüvəsi olan insan, onun qucağından çıxar, onun əllərində böyüyər.

hər şeydən əvvəl bir "insan"dır. Dünyada "Allahın xəlifəsi" olaraq məsuliyyətləri vardır. Ardından cəmiyyətdə qadın olaraq, evdə xanım olaraq, ana olaraq, qonşu olaraq yerinə yetirməli olduğu vəzifələr vardır.

Müsəlman qadının Rəbbinin qarşısındakı məsuliyyətləri

Müsəlman qadının əvvəlcə Rəbbinə, ruhlar aləmində: "Sən mənim Rəbbimsən, dünya həyatında Sənin əmr və qadağalarına uyğun yaşayacağam", deyə verilmiş bir sözü vardır.

Bu sözünü canlı tutmaq və nəfsinə uymamaq üçün hər an Rəbbi ilə əlaqəsini bərkitməlidir. Qadın evdən başqa məsuliyyətinin olmadığı üçün, zamanını düzgün qiymətləndirməli, gərəksiz iş və sözlərdən qaçınmalıdır. Əsasən də evdə məsum görünən televizor, kompüter və internet qadın üçün ən böyük zaman oğrusudur. Bu səbəblə Peyğəmbərimiz (s.ə.s.)in məsləhəti ilə hər gün Qurani Kərim oxuyaraq Rəbbi ilə əlaqəsini qüvvətləndirməlidir. Peyğəmbərimiz (s.ə.s.) və əshabını hər zaman örnək almalıdır.

Özünə qarşı məsuliyyətləri

Malik olduğumuz bədənlər, bizə xidmət edən orqanlar, etdiyimiz hər cür davranışlar və işlətdiyimiz zaman, Allahın bizə təqdim etdiyi ömrün və dünya əmanətinin bir parçasıdır. Hətta hesab anında lehimizə ya da əleyhimizə şahidlik edən ən qüvvətli və yaxın şahidlərimizdir.

Bu səbəbdən müsəlman qadın, hər zaman bunların şüur və idrakı içində bədəninin baxımı və sağlığı başda olmaqla xeyirli işlər etməli, xüsusilə modernizmin qarışıq qida, lüks və konfortundan mühafizə edərək təbiətini pozmamağa diqqət göstərməlidir. Peyğəmbərimiz (s.ə.s.)in ümməti üçün qorxduğu, köklük və yuxuya məğlub olmadan *"az yemək, az yatmaq, az danışmaq"* pəhrizinə riayət etməlidir.

Peyğəmbər mirasından pay almaq üçün, elmlə zinətlənməyə, qəlbini dünyanın saxta və keçici bərbəzəyi ilə deyil, gerçək və əbədi cehizləri ilə hazırlanmalıdır. Unutmamalıdır ki, dünya sevgisi ilə dolu qəlblərə Həqiqi Sevgili, insanları özü üçün, əşyanı isə insana xidmət üçün var etmişdir.

Ana və atasına qarşı məsuliyyətləri

Bir gənc Peyğəmbərimiz (s.ə.s.)ə deyir:

"-Ya Rəsulallah, böyük bir günah işləmişəm, nə etməliyəm? Tövbəm qəbul olarmı?" deyə soruşur.

Peyğəmbərimiz (s.ə.s.):

"-Anan varmı?" buyurur. Gənc:

"Xeyr, yoxdur", deyir. Peyğəmbərimiz (s.ə.s.) təkrar:

"Xalan varmı?", deyə soruşur. Gənc:

"Bəli" dedikdə Peyğəmbərimiz (s.ə.s.):

"Elə isə ona yaxşılıq et. Xala ana məqamındadır" buyurur. (Tirmizi, Birr, 6)

Qurani Kərimin ifadəsinə görə, insanı

“çətinliklərlə baxıb, böyüdən ana”ya ediləcək yaxşılıq, cənnəti qazanmaq üçün ən karlı saleh əməldir. Nə qədər çətində olsa, valideynə “of” belə demədən, gözəl bir üslubla xidmət etmək, həm dünyada, həm axirətdə böyük bir səadət vəsiləsidir.

Həyat yoldaşına qarşı vəzifələri

Allah Təala həyat yoldaşını **“onlarda hüzur tapacağımız, sakitləşəcəyimiz”** kimsələr olaraq tanıdır. (ər-Rum, 21) Qadın və kişi kimi bir birindən fərqli iki fitrət və kimliyin arasında məhəbbət və sükunət var etməsi, Allahın uca qüdrətinin əlamətlərindən biri olaraq qiymətləndirilir (ər-Rum, 21). Kişi zəyif və qorumasız olan qadının örtüsü, qadın isə çöldə yorulan kişinin sığınacağı limanı, hüzur və sükun qaynağıdır. Rəbbimizin, **“Aranızdakı subayları evləndirin...”** (ən-Nur, 32) buyurması, insan fitrətindəki bu zəruri ehtiyacın qarşılanması üçündür.

Bir Peyğəmbərimiz (s.ə.s.)ə bir qadın gəlmişdi. Peyğəmbərimiz (s.ə.s.) qadının sualını cavablandırdıqdan sonra:

“-Evlisənmi?” deyə soruşdu. Qadın:

“-Bəli”, dedi. Peyğəmbərimiz (s.ə.s.) daha sonra:

“Yoldaşınla aran necədir?” deyə soruşdu. Qadın:

“-Ona qarşı qüsur etmərəm. Əgər bu edə bilməyəcəyim bir işdirsə, bu istisnadır”, deyə cavab verdi.

Peyğəmbərimiz (s.ə.s.): *“Yoldaşına qarşı hərəkətlərinə diqqət et. Çünki o sənin həm cənnətin, həm də cəhənnəmindir”,* buyurdu (Əhməd b. Hənbəl, IV, 341; Hakim, Müstədrək, II, 206).

Övladlarına qarşı vəzifələri

Uşaqlar, dünyada ana-ataya Allah Təalanın həm bir hədiyyə və lütfü, həm də onlara verdiyi bir əmanətidir. Ana-ata imkanları daxilində uşaqlarının maddi və mənəvi ehtiyaclarını qarşılamaq, qorumaq və təhsillərini təmin etməklə məsuldurlar. Hətta Rəbbimizin, “İnsanları və cinləri mənə ibadət etsinlər deyə yaratdım” buyurduğu kimi, onlara Rəbbini tanıtmaq və gözəl ibadət etmələrini öyrətmək üçün vəzifələndirdiyi xidmətkarlardır (əz-Zariyat 56). Lakin Hz. Əlinin (r.a.) bildirdiyi kimi, təhsilin: “uşaqlarla yeddi yaşına kimi oynayaraq, on beş yaşına qədər dost olaraq, on beş yaşından sonra isə məsləhətləşərək” olması gözəldir.

Hər şeyin maddiyatla ölçüldüyü günümüzdə, uşaqları gözəl bir məslək sahibi etmək və bahalı mobil telefon almaq vacib deyil. Əsas olan, onlara Rəblərini yaxşı tanıdıb sevdirmək, ünsiyyətlərini qüvvətli quraraq ibadətlərini ən gözəl şəkildə etmələri üçün istiqamətləndirməkdir. Unudulmamalıdır ki, **“Ölüm və həyatın yaradılış məqsədi, kimin əməlinin daha gözəl olduğunu müəyyənləşdirməkdir”** (əl-Mülk,2).

Cəmiyyətə qarşı vəzifələri

Müsəlman xanım ailədə olduğu qədər cəmiyyətdə də qiyafəti, əxlaqı, danışması və davranışı ilə ideal bir örnəkdir. Evdən çıxdığı andan etibarən hər hərəkəti, yolda yeriyişi, alış-verişi, insanlarla ünsiyyəti, kütləvi nəqliyyat vasitələrindən istifadəsi ətrafına verdiyi bir təbliğdir.

Müsəlman xanım həya sahibidir. Müsəlman xanım iffətli və qürurludur. Müsəlman xanım yavaş asta danışar, səsini qaldırmaz, qiybət və zən başda olmaqla çirkin sözlərdən çəkinər. Müsəlman xanım səbirlidir, ətrafını sevindirər. Mərhəmət sahibidir, insanlara faydalı olar. Müsəlman xanım ona aid olmayan işlərə qarışmaz, onlarla vaxtını itirməz. Çünki bilir ki, cəmiyyətin nüvəsi olan insan, onun qucağından çıxar, onun əllərində böyüyər.

Albina AXISKALI

Yanmaq

Bir-birlərini sevən üç kəpənək, bir gün, odun nə olduğu haqda mübahisə edirlər. Birincisi, oda uzaqdan baxmış və aydınlıqdır demiş. İkincisi, oda yaxınlaşdığında isidəndir demiş. Sonuncusu isə sürətlə odun içinə girmiş. Odun nə olduğunu bircə o başa düşmüşdür.

Sevgi və bağlılıq da oda bənzəyir. Başa düşmək üçün nə uzaqdan baxmaq, nə də yaxınlaşmaq kifayət deyildir. YANMAQ gərəkdir!...

Bəli, yanmaq gərəkdir... İçdən-içə yanmaq... Ağrını bütün bədənində hiss edərək yanmaq... Elə bir yanmaq ki, ağrıdan qıvransan da heç kəsə deyə bilməmək... Elə bir yanmaq ki, geriyə səndən yalnız külünün qalması...

Rəsulullah kimi yanmaq... Namazda sinəsindən odda qaynayan qazan səsi gəlməsi kimi yanmaq...

Əshab kimi yanmaq... Geriyə baxmadan oda atılmaq...

Hz. Mövlana kimi yanmaq... Ömrünün mərhələlərini sadalayarkən xam idim, bişdim və yandım deyə bilmək...

Bəli, Onlar yandılar. Allahın sevgisiylə yandılar. Artıq yanmış birisini od yenidən yandırarmı?

Bəs biz? Yanmağın ağrısını hiss etdikmi heç? Yanmaq bir yana kiçik də olsa bir qığılcım parıldadımı heç... Yoxsa oda uzaqdan baxdıq, uzaqdan oxuduq yananların hekayəsini... Atəşi yandıracaq heç nəyimiz yox idi. Ona görəmi yandıra bilmədik? Yoxsa yanımızda kibritimiz, odunumuz var idi, biz istəmədiyimiz üçün yandırmadıq? Yoxsa dünyadakı fani hüzünlər, üzüntülər o qədər bürüdü ətrafımızı, o qədər yandırdıkı bizi, artıq əlavə odu yandırmağı lazım görmədik. Bəlkə də içimizdə parıldamağa çalışan qığılcımları bəzilərinin gəlib üfürüb, söndürməsinə izin verdik. Bəli, qabağımıza çıxan hər əngəli aşmaq üçün cəsarət toplaya bilmədik. Hər deyilənə qulaq asdıq. Bir dəfə qəlbimizdən, vicdanımızdan doğruları soruşmadıq. Öz doğrularımızı yaşaya bilmədik. Külək hansı tərəfə əsdi isə biz də o tərəfə yönəldik.

Bəlkə də buna görə təkcə uzaqdan baxıb qane olduq, özümüzü odun aydınlıq olduğuna inandırdıq. İgidlik göstərib bir az daha yaxınlaşa bilmədik. Odun bizə zərər verməsindən qorxduq. Açıqcası, yanmaqdan qorxduq. Ağrını, əzabı gözə ala bilmədik. Sevdiklərimizdən əl çəkə bilmədik. Fani arzularımızı fəda edə bilmədik. Halımızı pozmaq istəmədik. Çünki rahatlığa öyrəşmişdik. Əlbət, bir gün yanmamız gərəkdiyini unutmuşduq. Ya Allah sevgisi, məhəbbəti ilə yanacaqdıq, ya da cəhənnəmin dəhşətli odu ilə...

Bəlkə də zaman-zaman cəsarət toplayıb oda yaxınlaşdıq. Və yaxınlaşdıqca yeni bir şeylərin fərqinə vardıq. Od aydınlıqdan əlavə isinməkdir. Amma yenə ətrafımızı qorxu bürüdü. Odun içinə girə bilmədik. Gözümüzü yumub, arxaya dönüb baxmadan oda atıla bilmədik. Və ömrümüzün qış mövsümlərində fırtınalar, qasırğalar əsdikcə oda yaxınlaşdıq biraz isindik və yetərli sandıq. Daha çoxunu lazım bilmədik. Çünkü içimizdə qorxu var idi. Əslində, qorxulacaq olan halımız idi. Və qorxumuza görə də çox şeydən məhrum qaldıq. Əbədi olanı faniyə dəyişdik. Ticarətimiz zərərə uğradı. Amma əgər oda atılsaydıq, neçə-neçə mənləri yaxacaq, yox edəcəkdik. Mənləri yox edib, neçə-neçə Sənləri tapacaqdıq.

Bəli, yana bilmədik. Əgər böyük olsaydı sevdamız, davamız da böyük olardı. O qədər dünya davaları məşğul etdi ki bizi həqiqi davamızı unutduq. Necə ki, külək əsdikcə şamı söndürər, odu isə gücləndirər, bizim sevdamız da ancaq şam kimi qaldı, od ola bilmədi. Ona görə də hər əsən küləkdə söndük. Hər qarşılaşdığımız çətinlikdə içimizdəki yanğın söndü. Ancaq qarşılaşdığımız çətinliklərə sinə gərməli, odumuz güclənməli idi .

Yəni oda həqiqətlə baxa bilmədik , zahiri gördük. Həqiqət bizə uzaq qaldı.

Amma unutmayaq, nə qədər uzaqdan baxıb od aydınlıqdır desək də, nə qədər yaxınlaşıb, od isidəndir desək də, bunu bilməliyik ki, biz odun həqiqətini dərk edə bilmədik. Bu atəş bizdən əvvəl də yanırdı, indi də yanır, bizdən sonra da yanmağa davam edəcək. Yəni, hələ də gecikməmişik. Daha ömrümüzün son səhnəsi oynanır, pərdələr çəkilməyib. Bizə lazım olan tək şey əzim, cəsarət və fədakarlıqdır...

Rəbbim bizlərə yanmadan əvvəl, sevgi ilə yanmağı nəsib etsin... Amin!

Azadə YUSİFOVA

PUL HƏR ŞEY DEYİL

Hz. Peyğəmbər (s.ə.s.) belə buyurur:

"Zaman gələcək, onların dinləri pul, qiblələri qadınları olacaq".

Pul kəşf olunduqda şeytan çox sevinmiş və: "Artıq insanların bütə sitayiş etmələri üçün çalışmayacam" - demişdir. Pulsuz bir şey olmaz, amma hər şey də pulla olmaz.

Çox zaman insanlar, keçmişdəki pulsuz, yoxsul xoşbəxt günlərini xatirələrini ancaq, içində olduqları pullu, fəqət kədərli günlərində təsəlli tapmağa çalışırlar.

Pullu insan ağıllıdır. Ağıl müəllimlik edər. Üstəlik resept də yazar, ağlı olmasaydı varlı olardımı?

Tanıdığımız bir ailədə, on dəqiqəlik bir zaman içində, gəlin qaynana arasında, digər üzvlər arasında xəfifə alma və bir-birinə göstərdiyi təzyiqlərdə hansı tərəfin daha varlı olduğunu anlaya bilərik.

İnsan dəyərini itirdi. Pul və pulla alınan əşya ön plana çıxdı.

Məsələn: Avtobusa minərkən əldən düşən, ağız və burnunu qırılmaqdan çətin qurtaran, yıxılmamaq üçün o yandan, bu yandan tutunan qoca, ayaqqabısı tapdalandığı zaman verdiyi cavab bunu göstərmir? Qocanın verdiyi cavab:

"Öküz, qabağına bax! Ayaqqabımı tapdaladın. Hələ yeni rəngləmişdim onu".

Bütləşdirilən pul, necə ayrılıqların, necə cinayətlərin və necə ədəbsizliklərin səbəbi, ağıla, xəyala gəlməyən pislik və çirkinliklərin pul sayəsində işlənməsi, saxtakarlar, sərxoşlar, zinalar, şəxsiyyətsizlər, satılmışlar hamısı pulun məhsuludur. Pul qazanmaq üçün canlar kirayə verilir. Pul xərcləmək üçün hələ dünyaya gəlməyən körpələr parça – parça alınır. Pulsuz yuvalar məzar, pullular isə bazar olur. Pul əxlaq tanımaz, çünki ən böyük namussuzluqların üzərini pul dəmətləri örtür.



Əşyanın dəyərinin pulla ölçülməsinin nəticəsi, insanın dəyərini də pulla ölçmək, insana ən böyük zülm, ən böyük işgəncədir. Satın alına bilməyəcək vicdanın olmadığı hər vicdanın bir qiyməti olduğu qərarına gəlmək...

İnsanların yaxşılıq və pisliyində izzət və zillətinə olan ölçü təqvadır. İslam təqvadan başqa ölçü tanımaz. İnsanları pullarına, vəzifələrinə, cisimlərinə və xitablarına görə dəyərləndirmək səhvlərin ən böyüyüdür.

Allahın ehsan etdiyi pulu ehsan və infaq, kasıbları sevindirmək lazım ikən kasıbın yanında öyünmək, onu qıcıqlandırmaq, qəlbini qırıb düşmənliyini qazanmaq nə üçündür?

Böyük, kiçik, bütün toplumlardan çıxan anlaşılmazlıqlar, həsədlər, kibirlər hamısı pula görədir. Kiçikdən böyüyə hal-hazırda hər kəsin söhbəti puldur. Yeni tanış olan insanların salamdan əvvəl bir-birindən soruşduqları işi və məvacibidir. Əlli yaşındakı dul qadın evlənərkən ilk soruşduğu şey pul, ev və digər maddiyyatlar olur.


Bütün bunların nəticəsində öz-özümüzə soruşmağımız lazım olan bir sual daha vardır: Qüsur axtarmağa haqqımız varmı? Hüzuru, xoşbəxtliyi, necə və harada axtarırıq? Birlikdə yaşayıb böyüyən, ortaq bir qədəri paylaşan qardaşlar, hamısı pula görə döyüşür, pula görə birbirindən qopur, daha sonra isə bir-birinə yadlaşır.

Pul kimdə ???

Ağıl kimdə ???

Gəlin bir yerdə düşünək...

Vəfa Örnəyi



Yaşlı bir adam küçədə gedərkən velosiped onu vurur və yüngül yaralanır. Ətrafdakılar xəstəxanaya aparırlar. Tibb bacıları, rentgen çəkərək hər hansı bir qırıq və ya çatlaq olub olmadığını araşdıracaqlarını söyləyir. Yaşlı adam hüzursuz halda; «tələsdiyini, rentgen istəmədiyini» söyləyir.

Tibb bacıları maraqla hara tələsdiyini soruşurlar:

- «Həyat yoldaşım qocalar evində qalır. Hər səhər birlikdə yemək yeməyə gedirəm, gecikmək istəmirəm « deyir.

Tibb bacısı: «Yoldaşınıza xəbər çatdırarıq, gecikəcəyinizi söyləyərik» deyincə;

Yaşlı adam kədərli bir ifadə ilə:

- «Çox təəssüf ki, arvadım Alzheimer xəstəsidir, heç bir şey anlamır, hətta mənim kim olduğumu belə bilmir» deyir.

Tibb bacıları heyrətlə:

«Madam sizin kim olduğunuzu bilmir niyə hər gün onunla nahar etmək üçün belə tələsirsiniz?» deyə soruşurlar.

Yaşlı adam:

«Amma mən onun kim olduğunu bilirəm».



Yaşıl mərcili makaron salatı

Ərzaqlar:
500 qr. xırda makaron
1 stəkan yaşıl mərcimək
3 orta boy quru soğan
3-4 ədəd pomidor
Duz, istiot
Yarım armudu stəkan zeytun yağı
Yarım dəstə roka
Rəndələnmiş ağ pendir (kim nə qədər istəyirsə)

Hazırlanması:

Mərciməyi yuyub üzərini örtəcək qədər su, bir çimdik duz töküb ocağa qoyuruq. Öncə gur atəşdə qaynayır, sonra qısıq atəşdə 20 dəqiqə qaynadırıq. Mərcimək bişəndə altını söndürüb suyunu süzürük. Soğanları yarım halqa, bir az qalın doğrayıb, zeytun yağı ilə tavada azca qızardırıq. Soğan hazır olduqda xırda doğranmış pomidorları da əlavə edirik. Pomidor bişib sous halında olanda qaynadılmış mərciməyi, duzunu, istiotunu da əlavə edib 1-2 dəqiqə bişdikdən sonra altını söndürürük.

Böyük bir qazana 2 litr su töküb qaynadırıq. Duzunu əlavə edib makaronu tökürük. Bişdikdən sonra süzürük, sous və rokanı doğrayıb hamısını qarışdırırıq. Servis qabına aldıqda üzərinə pendir rəndələyirik. Nuş olsun!

Milföy xəmirdə küftə və pomidor



Ərzaqlar:
4 ədəd hazır milföy xəmiri
500 qr. küftəlik qiymə
3 dilim bayat çörək
1 orta boy soğan
¼ cəfəri
1 yumurta ağı
2 ədəd iri pomidor
Holland pendiri
Duz, qara bibər, bir az kəklikotu

Hazırlanması:

Ət, isladılıb sıxılmış çörək, sürtgəcdən keçmiş soğan, xırda doğranmış cəfəri, yumurtanın ağı, duz, qara bibər və kəklikotu hamısını birlikdə qarışdırıb yoğururuq. Bir az soyuducuda saxlayırıq. Milföy xəmirini təxmini 20 x 30 sm. yayırıq. Sonra əti xəmirin üzərinə yayırıq. Xəmiri sıx bir şəkildə bükürük. İti bıçaqla 1-2 sm qalınlığında dilim-dilim doğrayırıq. Kəsdiyimiz ruletləri yağlı falqa kağızı sərilmiş soba qabına yatılı şəkildə düzürük.

Yuyulmuş pomidorları 1 sm qalınlığında dilimləyirik. Başqa soba qabını zeytun yağı ilə yağlayıb dilimləri düzürük. Üzərinə duz, bibər və zeytun yağı gəzdiririk. Holland pendirini rəndələyib doğranmış pomidorlara bərabər şəkildə tökürük. 200° isinmiş sobada öncə küftələri 15 dəqiqə bişirdikdən sonra pomidor qabını da qoyub 15 dəqiqə də bişirdikdən sonra servis edirik. Nuş olsun!

Ananaslı keks



Ərzaqlar:
Keksi üçün:
2 yumurta
1,5 st. təpələmə un
90 qr. kərə yağı (otaq istiliyində yumuşalmış)
1 vanil
1 qabartma tozu
Bir çimdik duz
0,5 stəkan süd

Karamel üçün:
7 dilim ananas
0,5 st. tünd şəkər tozu
3 x.q. kərə yağı

Hazırlanması:
Karameli hazırlamaq üçün bir qazana tünd şəkər tozunu və bir neçə qaşıq su töküb ocağa qoyuruq. Şəkər tozu əridikdən sonra kərə yağını əlavə edib qarışdırırıq. Yağ əriyib bir az qaynadıqdan sonra əvvəlcədən yağladığımız keks qabına tökürük və ananasları düzürük. İstəyə görə ananasların ortasını kəsib tumları çıxmış albalı da qoya bilərsiniz. Keks üçün unu, qabartma tozunu, bir çimdik duzu qarışdırırıq. Başqa bir qabda yumuşaq yağı və şəkər tozunu mikser ilə çırpırıq. Yumurtaları və vanili əlavə edərək çırpmağa davam edirik. Sonra un qarışığının yarısını töküb çırpırıq, südün də yarısını tökürük və təkrar un qarışığını və südün qalanını da töküb çırpırıq. Qarışığı ananasların üzərinə bərabər gələcək şəkildə yayırıq. 175° qızdırılmış sobada 40 dəqiqə üzəri qızarana qədər bişiririk. Sobadan çıxdıqdan sonra 10 dəqiqə dinləndirib sonra servis qabına tərs çeviririk. Keksimiz hazırdır. Bu keksi mövsümə uyğun olan meyvələrlə də edə bilərsiniz. Nuş olsun!

Dondurmalar



Ərzaqlar:
Şaftalılı dondurma üçün:
500 qr. soyulmuş şaftalı
½ st. şəkər tozu
½ st. su
½ st. limon suyu
Gilaslı dondurma üçün:
500 qr. tumları çıxmış gilas
2/3 st. şəkər tozu
½ st. su
Bir neçə damcı limon suyu

Yemişli dondurma üçün:
500 qr. qabığı soyulub xırda doğranmış yemiş
½ st. şəkər tozu
½ st. su
Bir neçə damcı limon suyu

Hazırlanması:
Şaftalıları soyub dilimlədikdən sonra qaralmasınlar deyə üzərinə yarım limonun suyunu gəzdiririk. Meyvələri ayrı-ayrı blender ilə püre halına gətiririk. Hər bir çeşid üçün lazımlı şəkər tozunu və suyu ayrı-ayrı şərbət düzəldirik. Qaynadıqdan sonra içlərinə limon dilimi töküb soyumağa qoyuruq. Meyvə pürelərini və şərbətləri ayrı-ayrı qablarda qarışdırıb soyuducuda buzxanaya qoyuruq. Hər yarım saatdan bir buzxanadan çıxarıb çəngəllə və ya mikserlə yaxşı qarışdırırıq və yenidən buzxanaya qoyuruq. Bu prosesi bir neçə dəfə təkrar edirik. Dondurmamız hazırdır. Nuş olsun!

YEMƏK ƏDƏBİMİZ



İslam dini, Müsəlmanın gündəlik həyatının nizamlı bir şəkildə olmasını buyurur və bu xüsusiyyəti Qurani-Kərim və Hədisi Şəriflərlə açıqlamışdır.

Gündəlik yaşayış haqqında Peyğəmbərimiz (s.ə.s.) dən rəvayət edilən Hədislərdən bir çoxu yemək ədəbinə aiddir. Rəsulullah (s.ə.s.) hər işinə ALLAH Təalanın adını zikr edərək başlamağı sevərdi. Bu mübarək adətləri, yeməyə başlarkən də eyni idi. Yeməkdən əvvəl əllərini yumağı təxirə salmazdı, sağ əliylə və qarşısından yeyərdi.

Başlayarkən «Bismilləh» və ya «Bismillə-hir-rahmənir-rahim» deyərdi. Hz. Peyğəmbər (s.ə.s.), yeməyə başlarkən bismillah deməyi unudan kimsənin «Bismilləhi əvvəlihi və axirihi» deməsini tövsiyə etmişdir (Əbu Davud, III, 475).

Yemək ədəbi mövzusunda diqqət yetirilməsi lazım olan digər xüsusiyyətlər beləcə sıralana bilər:

1-Tikəni ağıza uyğun götürməli və yaxşıca çeynədikdən sonra udmalı;

2- Tikəni udmadıqca ikinci tikəyə əl uzatmamalı;

3- Çörəyi dişlərlə qoparmamalı;

4- Ağızda çörək varkən kimsə ilə danışmamalı;

5- Yeməyin soyudulması üçün içinə üfləməməli;

6- Başqalarını iyrəndirəcək davranışlar etməməli;

7- Başqalarının tikəsinə və yeməsinə baxmamalı;

8- Tikəni ağıza qoyarkən, başı qaba doğru uzatmamalı;

9- Yeməkdə israf etməməli, tikəni və verilən yeməyi bitirməyə çalışmalı;

10- Ağızdan bir şey çıxarmaq lazım olsa, üzü süfrədən çevirməli və o şeyi sol əl ilə etməli;

11- Qoparılan tikəni yeməklərin içinə batırarkən diqqət yetirməli, barmaqların yeməyə girməməsini təmin etməli;

12- Camaatla yemək yeyərkən, hər kəsin yeyib bitirməsini gözləməli, daha əvvəl süfrədən qalxmamalı;

13- Yeməyə əvvəl yaşca və ya mövqecə böyük olan adamın başlamasını gözləməli;

14- Küçələrdə və ayaqda çörək yeməməyə diqqət yetirilməli;

15- Çörək qırıntılarının nemət olduğunu unutmamalı və onlara lazım olan diqqət göstərilməli;

16- Yemək yemə işi bitincə Allahın verdiyi bu qədər nemətə qarşı bir şükür ifadəsi olaraq dua etməli və qısaca «Əlhəmdülillah» deməli ;

17- Yeməkdən sonra əllər yaxşıca yuyulmalı, dişlər fırça və ya misvak ilə təmizlənməlidir.